www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 yanvar 2024-cü il Cümə № 10 (8383) Qiyməti 60 qəpik

Xəbər

Bazarlarda pomidor "su qiyməti"nə düşdü - səbəb

yazısı səh.10-da

AVROPA İTTİFAQI ERMƏNİLƏRƏ "ƏTDƏN SƏRHƏD" QURUR

Qurumun Ermənistandakı missiyası sərhədyanı ərazilərə 1500 patrul göndərir, təhlükəsizliyin təmin edilməsi adı altında kəşfiyyat məlumatları toplayır - regionda təhlükəli oyunlar başlayır...

yazısı səh.4-də

Bakının iki qəsəbəsində qorxulu epidemiyanın səbəbi nə?

Ekspert deyir ki, "bu məsələdə ilk növbədə mənbə tapılmalıdır"; **Anar Cəbrayıllı:** "Hepatit A virusunun yayılmasının su ilə heç bir əlaqəsi yoxdur"

yazısı səh.12-də

Gündəm

295 nadanın senatda "quyuya" atdığı "daş"...

Fransa parlamentinin aşkar ermənipərəst qərarı bu dəfə Azərbaycanın səbrini bitirdi - rəsmi Bakı bu cavabı verdi

yazısı səh.3-də

"Rədd olsunlar..." - İrəvanda həbsdəki separatçıları unudurlar

yazısı səh.4-də

Fransa Bakıdakı adamlarını hərəkətə keçirdi

yazısı səh.5-də

Şeyx dini konfessiyaların rəhbərlərini QMİ-yə topladı

yazısı səh.6-da

Yeddinci parlament nə vaxt seçilər?

yazısı səh.5-də

"Silahlara nəzarət" təklifinə Moskvadan sərt reaksiya

yazısı səh.7-də

Paşinyan yenə Zəngəzur dəhlizində "ilişdi"

yazısı səh.9-da

Qara kürü bazarı - kilosu 2000 manat...

yazısı səh.10-da

Azərbaycana ən çox hansı ölkələrdən turist gəlir?

yazısı səh.13-də

Kərki kəndinin işğalından 34 il ötdü

yazısı səh.7-də

Bölgələr universitetləri qəbul etməyə hazırdırmı?

yazısı səh.11-də

Türkiyəli general Tüfekçi Bakıya niyə gəlmişdi?

yazısı səh.8-də

Vahid Mustafayev Ağdamda fabrik tikdirməsi qərarından danışdı

yazısı səh.11-də

Səlim Müslümovun nəyi vardı, indi nəyi qaldı

yazısı səh.14-də

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024



İlham Əliyev ABŞ-ın yeni səfirinin etimadnaməsini qəbul etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Dövlətimizin başçısı səfirlə söhbət edib.

Azərbaycan Prezidenti səfiri yeni təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Səfir ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycanla ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin perspektivlərinə, həmçinin beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparılıb. İqtisadi, enerji sahələrində və iki ölkənin biznes dairələri arasında əməkdaşlıq məsələlərinə toxunulub.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə fikir mübadiləsi aparılıbı.

ABŞ səfiri COP29-un bu il Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə COP29 çərçivəsində Azərbaycanla ABŞ arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq imkanlarına da toxunulub.

Məşhur aparıcı işdən çıxdı, Azərbaycanı tərk etdi

Aparıcı Xədicə Sənanqızı AzTV kanalındakı fəaliyyətinə son qoyub.

Axşam.az-a istinadən xəbər verir ki, işdən çıxan aparıcı Azərbaycanı tərk edib. O, bir müddətdir ki, Türkiyədədir.

İstanbula yollanan X.Sənanqızı orada dincəlir. Aparıcı gəzinti görüntülərini izləyiciləri ilə bölüşüb.

Qeyd edək ki, o, "Günə davam" proqramına aparıcılıq edirdi. Yanvarın ilk günündən etibarən Xədicə proqramda yer almayıb. Verilişi onun yerinə Nübar Əbil aparır.

Seçki ilə bağlı 153 beynəlxalq müşahidəçi akkreditasiyadan keçdi

Bu günədək növbədənkənar prezident seçkisi ilə bağlı akkreditasiyadan keçən beynəlxalq müşahidəçilərin sayı 153 nəfərdir.

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib.

Onun sözlərinə görə, 31 beynəlxalq təşkilatı təmsil edən 153 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

23 yaşlı qadın iki azyaşlı övladı ilə itkin düşüb

Sumqayıtda 23 yaşlı ana və övladları itkin düşüb.

"Report"un yerli bürosu məlumat verir ki, yanvarın 17-də şəhər sakini, 2001-ci il təvəllüdlü İmamrzayeva Aytac Ramin qızı övladları, 2020-ci il təvəllüdlü İmamrzalı Zəhra Murad qızı və 2023-cü il təvəllüdlü İmamrzalı Zeynəb Murad qızı Hacı Zeynalabdin qəsəbəsində yaşadıqları evdən xəstəxanaya getmək adı ilə çıxıb və itkin düşüblər.

Faktla bağlı polisə məlumat verilib.

Əhali arasında yayılan xəstəlik nədir?

Hər il olduğu kimi, payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar tənəffüs yolu infeksiyalarında artım müşahidə edilir.

Bu barədə TƏBİB-dən məlumat verilib.

Qeyd edilib ki, son günlərdə insanlar arasında boğaz qıcıqlanması, boğaz ağrısı, yüksək olmayan temperatur, oynaqlarda ağrı, burun tutulması simptomları ilə müşayiət olunan tənəffüs yolu infeksiyalarından şikayətlər artıb.

"Hətta bəzi xəstələrdə iybilmə, dadbilmə duyğusunun itirilməsi də müşahidə olunur. Xəstələr bunun COVİD-19 virusunun yeni variantlarından biri olduğunu düşünərək təşviş keçirirlər, lakin buna heç bir əsas yoxdur. Tənəffüs yolu infeksiyalarının (qrip, kəskin respirator xəstəliklər və s.) bəzilərində iybilmə və dadbilmə duyğusunun itirilməsi şikayətləri müşahidə edilə bilər. Mövsümlə əlaqədar sadaladığımız şikayətlərlə həkimə müraciət sayında artım olması, hər zamankı kimi, gözlənilən dir. Payız-qış fəsli daxil olandan bəri, TƏBİB respirator infeksiyaların artacağı ilə bağlı dəfələrlə əhaliyə çağırışlar edib, respirator gigiyena qaydalarına əməl etmələri tövsiyə olunub, qrip vaksinlərinin tətbiqi həyata keçirilib və keçirilməkdə davam edir", - deyə əlavə edilib.



Prokuror Təranə Səmədovaya ağır cəza istədi

Hədə-qorxu ilə pul tələb etməkdə təqsirləndirilən prodüser Təranə Səmədova və Rahim Həsənovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi yekunlaşmaq üzrədir.

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə prokuror çıxış edib.

Prokuror Təranə Səmədovanın 7 il 6 ay müddətinə, Rasim Həsənovun isə 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Növbəti məhkəmə prosesi yanvarın 25-də keçiriləcək.

Qeyd edək ki, 2022-ci ilin dekabrında Rahim Həsənov hədə-qorxu gələrək pul tələb etmə ittihamı ilə saxlanılıb. İstintaqın gedişatı zamanı prodüser Təranə Səmədovanın da cinayət işi üzrə təqsirli olmasına şübhələr müəyyən edilib və istintaqa cəlb olunub.

Vasif Talıbovun şirkətində "qiyam"

Naxçıvan Muxtar Respublikası (MR) Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun biznes imperiyasına daxil olduğu deyilən "Nəxşicahan Med" MMC məhkəməyə verilib.

Demokrat.az Qaynarinfo-ya istinadən xəbər verir ki, iddiaçılar Həziyev Vüqar Vidadi oğlu, Əsədov Elnur Ramiz oğlu, Quliyev Ramiz Məmməd oğlu, İsmayılov Sadıq Azər oğlu, Məmmədov Fərahim Fehruz oğlu, Vəliyev Orxan Tahir oğlu və Ağayev Elşən Bəhlul oğludur.

İddialara görə, adıçəkilən şəxslər "Nəxşicahan Med" MMC-nin işçiləri olub. Məhkəmə çəkişməsinin də əmək münasibətləri ilə bağlı mübahisələrdən qaynaqlanması bu iddiaların əsassız olmadığına dair şübhələri artırır. Lakin onların iddia tələblərinin konkret nədən ibarət olması barədə məlumat yoxdur.

İddiaya Naxçıvan Şəhər Məhkəməsində baxılacaq. İş hakim Gülsüm Əliyevanın icraatındadır.

"Nəxşicahan Med" MMC 17 aprel 2014-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 8 AZN olan şirkətin qanuni təmsilçisi Yusifov Arif Yusif oğludur.

"Nəqşicahan Holdinq"ə daxil olan "Nəxşicahan Med" muxtar respublika əczaçılıq sahəsində monopolist şirkət kimi tanınıb. Ötən ilin oktyabrında "Nəxşicahan Med" MMC ləğv olunduğunu elan edib.

Bu arada qeyd edək ki, hazırda şirkətin vergi borcu 98 718, 81 AZN-dir.

Şirkətin Vasif Talıbovun nəzarətində olması barədə iddialara gəlincə, mediada gedən məlumatlarda bildirilir ki, şirkətin daxil olduğu "Nəqşicahan Holdinq"in rəhbəri Rıfat Mahmudovdur. O, Sədərək gömrüyünün keçmiş sədri Nicat Mahmudovun qardaşıdır.

Mahmudov qardaşları Vasif Talıbovun kadrı kimi tanınır.

Digər tərəfdən, Vasif Talıbovun dönəmində ona və yaxud yaxınlarına aid olmayan hər hansı bir şirkətin fəaliyyət göstərməsi sadəcə mümkün olmayıb. Bu barədə mətbuatda dəfələrlə yazılıb.

Ödənişli yolda sürət həddi müəyyənləşdi

Ənənəvi yola alternativ olaraq yaradılmış ödənişli avtomobil yolunda yeni yol nişanı qoyulub.

"Avtosfer" verir ki, Bakı-Quba-Rusiya Federasiyası sərhədi yolunda maksimal sürət həddi 110 km/saat nişanı quraşdırılıb.

Bundan öncə həm qovşaqlara dönən, həm də giriş-çıxış hissələrində 90 km/saat və 70 km/saat nişanı olsa da, artıq 110 km/saat nişanı da qoyulub. Baxmayaraq ki, magistral yollarda maksimal sürrət həddinin 110 km/saat olduğunu hamı bilir. Amma nişan olmadığı üçün sürücülər bundan sui-istifadə edirdilər.

Qeyd edək ki, sürücülərin sürət rejiminə əməl etməsinə nəzarət olunması məqsədilə yaxın zamanda yolda xüsusi texniki vasitələrin quraşdırılması nəzərdə tutulur. Onu da bildirək ki, artıq ödənişli yolda ölüm və ağır xəsarətlə nəticələnən bir neçə yol qəzası baş verib.



Fəhlə iş vaxtı torpağın altında qalıb öldü

Sumqayıtda fəhlə iş vaxtı bədbəxt hadisə nəticəsində ölüb.

Baş Prokurorluğun Mətbuat Xidmətindən bildirilib ki, yanvarın 18-i saat 10 radələrində Sumqayıt şəhəri ərazisində "Archico" MMC-də fəhlə işləyən 1977-ci il təvəllüdlü Nazim Bağırov kanalizasiya xətti çəkilişi zamanı torpaq uçqunu altında qalıb. O, hadisə yerində vəfat edib.

Faktla bağlı şəhər prokurorluğunda araşdırma aparılır.



Pakistan vətəndaşları saxlanıldı

Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycandan Rusiya istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən Pakistan vətəndaşları 1998-ci il təvəllüdlü Wali Noor Khan və 2001-ci il təvəllüdlü Wahab Abdul Tauzeel saxlanılıblar.

Bu barədə DSX-dən məlumat verilib.

Araşdırma əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılan şəxslərin ölkə ərazisinə rəsmi qaydada gəldikləri, dövlət sərhədini pozaraq qeyri-qanuni yollarla miqrasiya etmək niyyətində olduqları müəyyən edilib.

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

295 nadanın senatda "quyuya" atdığı "daş"...

Fransa parlamentinin aşkar ermənipərəst qərarı bu dəfə Azərbaycanın səbrini bitirdi - rəsmi Bakı bu cavabı verdi

Fransa Senatı Azərbaycanın Qarabağa "hücumunu" pisləyən və Ermənistana hər hansı "digər təcavüz" və ərazi bütövlüyünün pozulması cəhdlərinin qarşısının alınmasını nəzərdə tutan qətnamə layihəsini qəbul edib. Layihənin lehinə 295 səs, əleyhinə isə 1 səs verilib.

Qətnamə layihəsində həmçinin Azərbaycana qarşı sanksiyaların tətbiqi və ermənilərin Qarabağa qayıtmaq hüququna təminat verilməsi tələb olunur.

Qərəzli qətnamənin məğzi nədir?

Fransa Senatı ilk dəfə deyil ki, Azərbaycan əleyhinə qətnamə qəbul edir. Bununla belə, qətnamənin adı və nəzərdə tutduğu sanksiya diqqət çəkir.

Birincisi, qətnamədə Azərbaycanın Qarabağa "hücumu" pislənir. Ümumiyyətlə, bu məqamın qətnaməyə salınması həm beynəlxalq hüququn pozulması, həm də Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir. BMT TŞ-nin Qarabağın işğalına dair 4 qətnaməsi vardı. Yəni işğal faktı bu qətnamələrlə beynəlxalq səviyyədə tanınıb. Azərbaycanın Qarabağı hərbi yolla işğaldan azad etməsi heç bir halda qanunsuz ola bilməz. Əksinə, bu faktı qanunsuz hesab etmək özlüyündə qanunsuz əməldir. Fransa başda olmaqla, əksər ölkələr Qarabağı Azərbaycanın ərazi bütövlüyü olaraq rəsmi səviyyədə tanıyır. Parisin belə bir qətnamə qəbul etməsi həm də bu baxımdan əsassızdır.

İkincisi, qətnaməyə Ermənistana hər hansı "digər təcavüz" və ərazi bütövlüyünün pozulması cəhdləri müddəası da salınıb. Ümumiyyətlə, Azərbaycan bu günə qədər Ermənistanın ərazi bütövlüyünü pozacaq addım atmayıb. Hətta 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Ermənistan Azərbaycan ərazilərinə ballistik raketlər atarkən belə rəsmi Bakı yalnız zərbələrin endirildiyi hərbi təyinatlı məntəqələri sıradan çıxarmaqla kifayətlənmişdi. Yəni rəsmi Bakının Ermənistan ərazilərini işğal etmək kimi bir düşüncəsi yoxdur.

Düzdür, rəsmilər səviyyəsində qeyd olunur ki, bugünkü Ermənistan əraziləri tarixi Azərbaycan torpağıdır. Hətta Paris sülh konfransı zamanı Fransa başda olmaqla, dövrün Avropa ölkələri Cənubi Qafqazın siyasi xəritəsini tanıyıb. Və həmin xəritələrdə Qərbi Zəngəzur, Göyçə mahalı ADR-in parçası kimi təsdiq edilib. Bununla belə, rəsmi Bakı məsələyə tarixi metadologiya aspektindən yanaşmır.

Üçüncüsü, qətnamədə Ermənistan əhalisinin Qarabağa qayıtmaq hüququna təminat verilməsi tələb olunur. Ermənistan əhalisi deyərkən böyük ehtimalla Qarabağ ermənilərindən söhbət gedir.

Dördüncüsü, qətnamə layihəsində diqqətçəkən bir digər məqam da Fransanın Azərbaycana qarşı sanksiyalar tətbiq etməsidir. Ümumiyyətlə, iki ölkə arasında iqtisadi münasibətlər mövcuddur. Lakin bu, həyati əhəmiyyət kəsb edəcək və ya iqtisadiyyata ciddi zərbə vuracaq qədər geniş deyil. Fransa region olaraq Azərbaycana çox uzaqdır. Bu ölkənin nəzarət etdiyi strateji bir nöqtə və ya boğaz da yoxdur. Parisin sanksiya addımı Bakını narahat etmir. Lakin Azərbaycan Fransanın da daxil olduğu Aİ-nin alternativ enerji təminatçısıdır. İttifaq ölkələrinin bir çoxu ilə mavi qazın nəqlinə dair sazişləri var. Yəni müqayisə etdikdə Bakının iqtisadi sahədə təzyiq rıçaqları daha çoxdur.

Fransa Senatının qətnaməsi ilə əlaqədar **Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi** bəyanat yayıb. Komitə Fransaya qarşı sanksiya qərarlarının verilməsi ilə əlaqədar təkliflər irəli sürüb. Bildirilib ki, Fransa hökumətinin apardığı anti-Azərbaycan siyasəti, o cümlədən Fransa Parlamentinin hər iki palatasında ölkəmiz əleyhinə indiyədək qəbul edilmiş qətnamələr ucbatından iki ölkə arasında münasibətlər tarixinin ən aşağı səviyyəsindədir və mahiyyətcə dayandırılmış hesab edilə bilər. Fransa hökumətinin, eləcə də Senatının və Milli Assambleyasının destruktiv və təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsinin qarşısını almağa və Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirməyə xidmət edir. İndiki Ermənistan ərazisində yaşamış yüz minlərlə azərbaycanlının ata-baba yurdlarından zorla kütləvi surətdə qovulmasına səssiz qalan və onların geri qayıdış hüququnun bərpasına çağırış etməyən Fransa yenə də ikili standartlar siyasətinə sadiq qalaraq ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsi üçün hər fürsətdə canfəşanlıq edir.

Fransa Senatının qətnaməsində və Fransa rəsmilərinin mütəmadi açıqlamalarında iddia edildiyinin əksinə olaraq, hətta Avropa Şurasının İnsan hüquqları üzrə komissarının Ermənistana və Azərbaycana səfərindən sonra hazırladığı hesabatda da qeyd edilir ki, Azərbaycan hakimiyyəti tərəfindən heç bir güc tətbiq olunmadan, Azərbaycanın Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarı olmuşdur. Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdən Fransadan fərqli olaraq, dünyanın əksər ölkələri, eləcə də müvafiq beynəlxalq təşkilatlar Azərbaycanın qarşılaşdığı "mina terroru"nu pisləyən açıqlamalar yaymışlar...

Bəyanatda Fransanın indiyə qədər dünyanın 50-dən yuxarı ölkəsində həyata keçirdiyi insanlıq əleyhinə cinayətlər, soyqırımlar, milyonlarla insanı qətlə yetirməsi faktlarla sadalanıb və bu cinayətlərə görə BMT-nin, ayrı-ayrı beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə Fransanın məhəl qoymaması xatırladılıb.

Bəyanatda Fransa törətdiyi insanlığa qarşı cinayətləri və müharibə cinayətlərini tanımağa, vəhşiliklər törətdiyi xalqlardan üzr istəməyə, həmçinin təbii sərvətlərini talan etdiyi dövlətlərə kompensasiya ödəməyə çağırılıb: "Fransa parlamentarilərini öz hökumətini ölkədə artmaqda davam edən irqçi, antisemit, türkofob və islamofob təzahürlərin qarşısını almaq üçün siyasi iradə nümayiş etdirməyə və bu halların qarşısını almağa yönələn qətnamə qəbul etməyə dəvət edirik.

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi yuxarıda şərh olunanları, xüsusən Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edir:

1. Fransaya qarşı sanksiyalar tətbiq edilsin.

2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivləri aşkar edildikdə dondurulsun.

3. Fransa ilə bütün iqtisadi əlaqələr dayandırılsın.

4. "Total" da daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın.

5. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməsin.

6. Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Kanaky, Maohi Nui və Korsikanın müstəqilliyinin tanınması istiqamətində addımlar atsın".

Deputat Aydın Hüseynov "Yeni Müsavat"a bildirdi ki, Fransa Azərbaycana qarşı düşmənçilik aparır. Senatın qərarı isə artıq həyasızlığın pik nöqtəsi oldu: "Azərbaycanın bu düşmənçiliyə və həyasızlığa sərt cavabı olmalı idi və Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin verdiyi bəyanat da bunu göstərir. Bəyanatda hökumətimizə edilən çağırışlardakı məsələlər reallaşdırıldıqca itirən tərəfin məhz Fransa olduğunu senatdakılar görəcəklər. Makron və onun ətrafı işğalçını müdafiə etməklə Fransanın Minsk Qrupu həmsədrliyinin üstündən xətt çəkmiş oldu. Artıq Azərbaycan onun vasitəçliyindən imtina edib. Bundan sonra isə Milli Məclisin bəyanatında qoyulan məsələlərə start verildikcə Fransanın itirdiklərinin sayı daha da artacaq. Azərbaycan heç bir addımında beynəlxalq hüququ pozmayıb və ədalətli mövqedə olub. Bu gün də ədalətli mövqedədir. Ona görə də bizim hansısa senatın qəbul etdiyi kağız parçasından çəkinəcəyimiz yoxdur.

Fransa Senatının addımına ən layiqli cavablardan birini də elə məhz fransalı, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Fransa Parlamentinin fəxri deputatı Jerom Lamber verib. Cənab Lamber yaydığı bəyanatda senatın 157 saylı qətnaməsini pisləyib və bildirib ki, qətnamə qisas almaq ruhunda yazılıb, belə qətnamələr dünyada sülhə mane olur, separatizmə yol açır. O bildirib ki, beynəlxalq hüquqdan, Fransanın dünyanın bu regionundakı maraqlarından danışarkən senat heç bir müsbət rol oynamaq istəmir. O, hətta açıq şəkildə bəyan edib ki, öz ölkələrindən daha çox ekstremist olan erməni diasporunun lobbiçiliyi Fransanı bu gün çox səhv istiqamətə sürükləyir.

Tamamilə düzgün xəbərdarlıqdır. Fransada erməni lobbisinin güclü olması, 600 min ermənin yaşaması bu ölkənin siyasətçilərinin əksəriyyətinin mövqeyinə həmişə təsir edib. Belə görünür ki, senat artıq Ermənistan parlamenti kimi fəaliyyət göstərir".

Deputat vurğuladı ki, Fransa erməni terrorçularını bəsləyən ölkə kimi də tanınır. Fransanın özü qatil, terrorçu dövlətdir. Fransa ilə Ermənistanı bir-birilərinə bağlayan soyqırımlar törətməklə tarixə eyni adla daxil olmalarıdır: "Fransa Əlcəzairdə, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə milyonlarla dinc sakini məhv edib. Özünü "insan haqlarının və demokratiyanın vətəni" sayan Fransa tarixi ilə üzləşməkdən ona görə qorxur ki, insan haqları və demokratiya ilə bir araya sığmayan bəşəri cinayətlər törədib. Ermənistan havadarlarının dəstəyi ilə türklərə və azərbaycanlılara qarşı son yüz ildə törətdiyi soyqırımlarla Fransaya çox bənzəyir. Onları birləşdirən ümumi dəyər məhz budur.

Fransa Senatı və rəhbərliyi öncə qeyd etdiyim cinayətlərinə görə üzr istəməlidir".

Deputat Elşən Musayev isə bildirdi ki, ümumilikdə Fransanın və ələlxüsus da senatın Azərbaycana qarşı sərgilədiyi fəaliyyət hikkədən, rəzillikdən, qərəzdən savayı bir şey deyil. Bunlar həqiqətən başlarını itiriblər və artıq ağılla, məntiqlə deyil, sırf düşmənçilik məqsədinə, amalına köklənmiş strategiya ilə hərəkət edirlər: "Fəqət, məlum gedişatla, hərəkətliliklə nəyəsə nail olmaq mümkündürmü? Əsla! Çünki biz belə həmlələri, belə riyakarları, belə başı pozuqları indiyə qədər çox gördük. Hətta ruhumuzda, içimizdə həmin zavallılara, hərdəmxəyallara, həqarətçilərə, hədyançılara qarşı antitel, immunitet belə formalaşdı. Düşüblər, özlərisifət Ermənistanın ardınca. Və beləcə ermənilləşiblər, erməni tayı olublar, erməni gününə qalıblar. Özünə hörmət edən ölkə bu boyda yanlışlığı, beynəlxalq hüquqa zidd hərəkətləri üzərinə götürərmi? Erməni kimi 30 illik işğalçı ilə bir sırada dayanarmı? Nə var- nə var Makronla Paşinyan dostdur, qardaşdır deyə bu qədər haqsızlığa imza atarmı?! Elə bil kukladırlar, plastilindirlər, amöbdürlər. Hara desən yönəlirlər, uzanırlar, gündə bir forma, sifət, üz dəyişirlər".

Deputat qeyd etdi ki, Fransa əgər açıq ədavət istəyirsə, buyursun. Hara qədər desələr varıq: "Bizim kimsədən qorxacaq, ehtiyat edəcək, çəkinəcək yerimiz yoxdur. Bütün məkrli, nadan, riyakar qüvvələrin cavabını da layiqli şəkildə vermək iqtidarındayıq".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Avropa İttifaqı ermənilər üçün "ətdən sərhəd" qurur

Qurumun Ermənistandakı missiyası sərhədyanı ərazilərə 1500 patrul göndərir, təhlükəsizliyinin təmin edilməsi adı altında kəşfiyyat məlumatları toplayır - regionda təhlükəli oyunlar başlayır...

Avropa İttifaqının Ermənistandakı missiyası sərhədyanı ərazilərə 1500 patrul göndərir. Bu barədə missiyanın "X" hesabında paylaşım edilib. Bildirilib ki, missiyaya yerlərdəki vəziyyəti müşahidə etmək və hesabat hazırlamaq tapşırılıb. "Avropa İttifaqının Ermənistandakı missiyası Qafan, Gorus, Cermuk, Yeğeqnadzor, Martuni və İcevandakı 6 əməliyyat bazasında patrul xidməti həyata keçirir", - qurumdan bildirilib.

"Yeni Müsavat" yada salır ki, Avropa İttifaqı Şurası bir il əvvəl yanvarın 23-də Ermənistan-Azərbaycan sərhədində "sabitliyə töhfə vermək" məqsədilə Ermənistanda mülki missiya yaratmaq barədə razılığa gəlib. Rəsmi Bakı o vaxt bəyan etmişdi ki, qurum Ermənistanda monitorinq missiyası yerləşdirərkən Azərbaycan tərəfinin "legitim maraqlarını nəzərə almalıdır".

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Josep Borrel isə ötən ilin dekabrında bəyan etmişdi ki, Ermənistan sərhədində mülki missiya həyata keçirən əməkdaşların sayını artırmağa qərar verilib. Aİ-nin Xarici İşlər Şurası "mülki missiyasını gücləndirmək məqsədilə" əməkdaşların sayının 138-dən 209 nəfərə artırmaq barədə razılığa gəlindiyini bəyan etmişdi. "Əməkdaşlarımızın sayını mühüm səviyyədə artırmaqla Ermənistan-Azərbaycan sərhədində sabitliyi qorumaq missiyamıza nə qədər önəm verdiyimizi və sülh prosesinə vacib töhfəmizi açıq şəkildə göstərmiş olduq", - Josep Borrellə istinadla Aİ-nin saytında qeyd olunub. Qurumun ali nümayəndəsi Josep Borrell bölgədəki monitorinq missiyasının sayını artırmaqla sülh prosesinə və sabitliyə "töhfə verdiklərini" diqqətə çatdırıb.

"Şərq Tərəfdaşlığı"na üzv ölkələrin xarici işlər nazirlərinin Brüsseldə keçirilən iclasında çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov şuranın bu qərarını tənqid edərək əməkdaşların sayının "özbaşına genişləndirildiyini" demişdi. "Aİ-nin Ermənistandakı monitorinq missiyasına gəlincə, ilkin vədlərə əməl olunmayıb, anlaşma pozulub və mandat özbaşına genişləndirilib. Bu missiya regionda sabitliyə və Ermənistanla Azərbaycan arasında etimada töhfə vermək kimi bəyan etdiyi məqsədlərinə nail ola bilmədi", - **nazir Ceyhun Bayramov** deyib. Nazir Ermənistandakı monitorinq missiyasının Azərbaycan əleyhinə "təbliğat vasitəsi kimi geniş şəkildə istifadə olunduğunu" bildirib. Onun sözlərinə görə, Aİ vasitəsilə Ermənistanı silahlandırmaq kimi "sabitliyi daha da pozan" təşəbbüslər irəli sürülür: "Bu cür təşəbbüslərin Aİ-nin "tərəfsiz vasitəçi" kimi etibarı və ümumilikdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması səyləri üçün mənfi nəticələri qaçılmazdır. Bir tərəfdaşı digərinə qarşı silahlandırmaq və ya başqa şəkildə istifadə etmək heç bir halda "Şərq Tərəfdaşlığı"nın elan edilmiş məqsədlərinə uyğun ola bilməz".

Nazir qeyd etdiyi məqamları əsas gətirərək Aİ-ni Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə zərər verməməyə çağırıb. "Ortaq maraqlara, qətiyyətə, qarşılıqlı hörmətə və faydalara diqqət yetirməklə, biz daha firavan, sabit və əlaqəli "Şərq Tərəfdaşlığı" regionu qura bilərik", - nazir Bayramov əlavə edib. Ümumiyyətlə, Aİ missiyasının bu addımlarının əsas səbəbkarı rəsmi İrəvandır. Ermənistan hakimiyyəti bu cür addımları ilə regionda prosesləri öz xeyrinə dəyişməyə çalışır. Digər tərəfdən, Ermənistanda müəyyən kəsim Avropa İttifaqının missiyasından narazılıq edir. Çünki Ermənistanın təhlükəsizliyinin təmin edilməsi adı altında Avropa İttifaqı regionda möhkəmlənir, üstəlik, kəşfiyyat məlumatları toplayır. Aİ missiyasının Ermənistanda gücləndirilməsi Fransanın və Avropadakı digər ermənipərəst qüvvələrin növbəti siyasi oyunudur. Həm də birdən-birə patrul sayının 1500 nəfər artırılması artıq daha ciddi siyasi oyunların başladığından xəbər verir.

Bütün bunların fonunda Aİ-nin öz missiyasını Ermənistanda daha uzun müddətə artırmaq istəyini də görmək mümkündür. Proseslərin ardıcıllığı da buna dəlalət edir. Belə ki, Aİ ilk olaraq bu ölkəyə 40 nəfərdən ibarət iki aylıq missiya göndərdi. Sonra 100 nəfərdən ibarət iki illik missiya göndərildi. Daha sonra missiyanın üzvlərinin sayı 23 nəfər artırıldı. Ardınca isə patrulların sayı çoxaldıldı və İcevanda yeni ofisinin açılışı oldu. Halbuki Aİ missiyasının Yeqnadzorda ofisi fəaliyyət göstərirdi. Bütün bunlar Aİ-nin iki ildən sonrakı müddətdə də Ermənistanda qalmağa maraqlı olduğunu göstərir. Sözsüz ki, missiyanın tərkibinin genişlənməsi Rusiyanın da ürəyincə deyil...

Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri Azad Məsiyevin "Yeni Müsavat"a bildirdiyinə görə, Aİ-ni regiona gətirməklə iki məqsəd güdülür: "Prezident yerli televiziyalara müsahibəsinə qeyd etdi ki, 44 günlük müharibə böyük güclərin laylarını tərpətdi. Bu savaş Qərbin Cənubi Qafqazda planlarını pozdu. Bu baxımdan, Paşinyan postmünaqişə dönəmində şərti sərhədə müşahidə missiyasını yerləşdirməklə onların mövcudluğunu təmin etməyə çalışır. Son zamanlar da Qərb dairələri Ermənistanı silahlandırır və bu da gələcəyə hesablanmış ssenaridir. Yəni süni şəkildə gərginlik yaradaraq təxribata yol verirlər, atəşkəsi pozurlar, sonra missiya öz hesabatında Azərbaycanı ittiham edərək təcavüzdə, eskalasiyada günahlandırır, Bakıya təzyiqləri artırır. Ona görə də bu məkrli niyyətin olduğu göz qabağındadır. Əks halda, müşahidə qrupunun gəlməsinin heç bir əsası yoxdur", - deyə A.Məsiyev belə dəyərləndirir. **Onun fikrincə, hazırda sərhədlər dəqiqləşməyibsə, bu monitorinq missiyası nəyi müşahidə edəcək:** "Sərhəddə elə zonalar var ki, tarixi Azərbaycan torpaqlarıdır. Ona görə də Azərbaycanla razlaşdırmadan missiyanın bölgəyə yerləşdirilməsi Bakıya təzyiq etmək məqsədi daşıyır. Həmçinin Rusiyanı bölgədə sıxışdırmağa hesablanmış addımlardır. Düşünmürəm ki, istəklərinə böyük ölçüdə çata biləcəklər. Rusiyanı regiondan tamamilə kənarlaşdırmaq mümkün deyil".

Hərbi analitik Telman Qasımovun dediyinə görə, Aİ bu addımları ilə Ermənistan ərazisində Rusiyaya "əzələ" nümayiş etdirir. Ekspert hesab edir ki, Aİ paralel olaraq da Azərbaycanla bağlı qərəzli qərarlar açıqlayır, qeyri-obyektiv qətnamələr irəli sürür: "Bu, Azərbaycana basqı etmək siyasətidir. Patrul xidmətinin genişlənməsi hər iki başı olan addımlardır: Rusiyaya güc göstərmək, Azərbaycana təzyiq etmək... Onlar Qarabağdan getmiş ermənilər məsələsində Azərbaycanın addımlar atmasını gözləyirlər. Ancaq biz nə edə bilərik? Onlar öz xoşu ilə gediblər, təkliflərimizi qəbul etməyiblər".

T.Qasımov buna baxmayaraq, Avropa İttifaqına, ABŞ-a və Fransaya yönəlik tənqidlərdə korrekt olmağı üstün tutur: "Bu, çox incə məsələdir. Bəzən ekspertlər Qərbin çox üstünə gedirlər. Biz bir qədər diqqətli olmalıyıq. Makronu tənqid edirik, haqlı olaraq deyirik, amma Fransa ilə münasibətləri gərginləşdirmək də lazım deyil. Çünki bu boşluqdan düşmən tərəfi istifadə edir. Biz elə regionda yerləşirik ki, hegemon ölkələrlə kəllə-kəlləyə gəlməli deyilik. Onsuz da region qazan kimi qaynayır. Xüsusən İran faktoru var. Bir post görməyən, güllə görməyənlər Amerika, Avropaya meydan oxuyurlar. Amma fikirləşmək də lazımdır ki, düşmən bundan istifadə edir. Düşmən arzu edir ki, elə Azərbaycanın Avropa ilə əlaqəsi korlansın. Buna rəvac verməli deyilik. Həmin mülki missiyaya gəlincə, fəaliyyəti bundan sonra da genişləndiriləcək. Üstəlik, Qərb dairələri bir yandan təbliğat aparır ki, guya Azərbaycan hücuma hazırlaşır. Ona görə bu hiyləgər proseslərdə diqqətli olmalıyıq".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

"Rədd olsunlar..." - İrəvanda həbsdəki separatçıları unudurlar

Ermənistan rəhbərliyi Qarabağdan qovulmuş separatçıların keçmiş başçılarının Azərbaycanda həbsdə saxlanılması ilə demək olar ki, barışıb. "Hraparak" nəşri yazır ki, baş nazir Nikol Paşinyan Ermənistan parlamentinin son iclasında "Hayastan" fraksiyasının deputatı Aqvan Vardanyanın Bakıda həbsdə saxlanılan separatçılarla bağlı sualına cavab verməkdən imtina edib.

Parlamentin sədri Alen Simonyan isə müxalifət deputatına məsələ ilə bağlı hökumətə yazılı müraciət etməyi məsləhət görüb.

"Hraparak" yazır ki, Ermənistan Bakıda həbsdə saxlanılan separatçıların azad olunmasına laqeyd yanaşır, çünki onlardan təhlükə görür.

Qarabağ terrorçularının keçmiş "komandan müavini" Davit Manukyanın "Hayastan" fraksiyasının deputatı olan qardaşı Qeqam Manukyanın da hökumətin hərəkətləri ilə bağlı susduğu bildirilir.

Uzun illər Qarabağ separatçılarının eks-başçısı Bako Saakyanın "müşaviri" olmuş "Mənim namusum var" fraksiyasının deputatı Tiqran Abramyan bildirib ki, Ermənistan hakimiyyəti qondarma "artsaxın hərbi-siyasi rəhbərliyi"nin geri qaytarılması üçün heç bir tədbirlər görmür və məsələni unutdurmağa çalışır.

O, təəssüflə qeyd edib ki, müxalifətin alətləri yetərli deyil ki, məsələni beynəlxalq gündəmdə saxlasın.

Xatırladaq ki, qondarma "artsax"ın üç keçmiş başçısı Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, separatçıların qanunsuz ordusunun "keçmiş komandanı" Levon Mnatsakanyan, onun "keçmiş müavini" Davit Manukyan, "keçmiş dövlət naziri" Ruben Vardanyan və "keçmiş xarici işlər naziri" Davit Babayan, qondarma "parlamentin spiker"i Davit İşxanyan hazırda Bakıda həbsdədir.

Separatçılıq və terrorçuluqda ittiham olunan bu şəxslər istintaq dövrü üçün 6 aylığa həbs olunub.

Fransa Bakıdakı adamlarını hərəkətə keçirdi - seçki ilə bağlı kirli plan

Parisin dominant olduğu Avropa İttifaqı və onun strukturları hakimiyyətə siyasi təzyiqlər üçün "fəallaşıb"; Aİ-nin ölkəmizdəki adamı, Avropa Parlamenti "çırmanıb..."

Siyasi analitiklərin müşahidələrinə görə, 7 fevral növbədənkənar prezident seçkisi yaxınlaşdıqca Azərbaycana qarşı təzyiqlər artmaqdadır. Bu yöndə fakt olaraq hakimiyyəti tənqid edən hesabatların sayının hər gün artması misal göstərilir.

Bu da seçkiyə beynəlxalq etimadsızlıq yaratmaq istəyindən qaynaqlanır. Xüsusilə Avropa İttifaqı (Aİ) və onun strukturlarında ciddi fəallaşma nəzərə çarpır. Məsələn, Aİ-nin Azərbaycandakı missiyasının rəhbəri Peter Mixalko "jurnalistlərə qarşı mövcud təzyiqləri" tənqid edib. "Azərbaycanda bu yaxınlarda həbs edilmiş bəzi jurnalistlərə qarşı ləyaqəti alçaldan rəftara dair xəbərlər məni şoka saldı. Bu, xüsusilə məhkəmə zallarında qandallanmış, şüşə qəfəslərə salınmış və ya əsas insan ehtiyaclarından məhrum olan gənc qadınlara aiddir. Hər kəsin ləyaqət və hörmətlə rəftar olunmaq hüququ var", - o, X platformasındakı hesabında yazıb. Mixalkonun Azərbaycanın məhkəmə sistemi ilə bağlı fikirlərinə cavab verən XİN rəsmisi Ayxan Hacızadə qeyd edib ki, bu iddialar tam əsassızdır: "Bu iddia həm əsassız, həm də məsuliyyətsizdir! Yaxşı olardı ki, səfir Avropa İttifaqının bəzi ölkələrinin məhkəmə sistemlərində ədalətin olmaması və pis rəftara diqqət yetirsin".

Qeyd edək ki, ATƏT-in media azadlığı üzrə nümayəndəsi Tereza Riberio və "Sərhədsiz Reportyorlar" da Azərbaycan hakimiyyətini tənqid edib.

Məlumdur ki, Avropa İttifaqının strukturu olan Avropa Parlamenti fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkisini müşahidə etməyəcək. Bu barədə yanvarın 15-də Avropa Parlamentinin demokratiyaya dəstək və seçki koordinasiya qrupunun həmsədrləri, deputatlar Devid Mak-Allister və Tomas Tobenin birgə bəyanatında deyilir. Avropa Parlamenti seçkiləri müşahidə etməyəcəyi üçün seçki prosesini, eləcə də elan edilmiş nəticələri şərh etməyəcək. "Avropa Parlamentinin heç bir üzvünün bu qurumun adından seçkiləri müşahidə etmək və ya şərh etmək səlahiyyəti yoxdur", - bəyanatda qeyd olunur. Əgər Avropa Parlamentinin üzvlərindən hər hansı biri seçkilərə münasibət bildirmək qərarına gələrsə, bu, Avropa Parlamentinin yox, onun şəxsi təşəbbüsü olacaq. Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə isə deyib ki, rəsmi Bakı Avropa Parlamentinə növbədənkənar seçkiyə müşahidəçi göndərmək üçün dəvət yollamayıb.

Beynəlxalq müşahidəçilər seçkilərin demokratik olması imicinə yaxından dəstək verirlər. Bu baxımdan, Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkisinə beynəlxalq müşahidəçilərin cəlb edilməsi vacib amildir. Unutmayaq ki, Azərbaycan dövləti ilk dəfə olaraq bütün suveren ərazilərində seçki keçirəcək.

Qeyd edək ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları bürosu (DTİHB) prezident seçkisində 37 nəfərlə, MDB Parlament Assambleyası 17 nəfərlə, Türkiyə 5 nəfər, MDB 9 nəfər, Gürcüstan Mərkəzi Seçki Komissiyası sədrinin rəhbərliyi ilə müşahidə missiyasında iştirak edəcək. Avropa Şurası və Avropa İttifaqının seçkini müşahidə edib-etməyəcəyi hələ ki bəlli deyil.

Unutmayaq ki, Avropa İttifaqında Fransanın hegemonluğu hiss ediləcək dərəcədədir. Avropa İttifaqının təsisçiləri Belçika, Almaniya, Fransa, Niderland, Lüksemburq və İtaliya olsa da, rəsmi Paris özünü daha çox lider kimi aparır. Avropa İttifaqının Fransanın rəhbərliyi altında antisemitizm və islamofobiya çıxışları isə güclənib. Azərbaycanla Fransanın indiki gərgin münasibətləri fonunda Paris mütləq çalışacaq ki, seçki ərəfəsi Azərbaycan hakimiyyətinə sərt tənqidlər artsın, seçki prosesinə mümkün qədər az beynəlxalq müşahidəçi gəlsin, bu da sonradan seçkinin nəticələrinə etimadsızlıq yaratmaq üçün bəhanə olsun. Maraqlıdır ki, Rusiya Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilova da bildirib ki, ölkədə seçkilərə etimadsızlıq fonunun yaradılması istiqamətində intensiv iş aparılır. Beləliklə, Fransanın dominant olduğu Aİ və qurumları hər iki ölkədəki seçkilərlə bağlı siyasi təzyiq kampaniyasını genişləndirməyə hazırlaşır.

Prezidentliyə namizəd Elşad Musayev "Yeni Müsavat"a qeyd etdi ki, Qərb təşkilatları seçkiqabağı hər zaman müxtəlif təzyiq elementlərindən istifadəyə can atırlar. E.Musayev vurğuladı ki, seçkidən əvvəl də Azərbaycana təzyiqlərin başlayacağını proqnozlaşdırmışdı: "Qərb təsisatlarının ənənəvi fəaliyyətidir. Onlar seçki keçirilən ölkələrdə hakimiyyətlərə qarşı təzyiq rıçaqlarını işə salırlar. Amma bu seçkidə hər hansı müdaxilə, iqtidar tərəfindən bizə qarşı süni əngəl olmayıb. Bu seçkilər kifayət qədər münbit şəraitdə keçir. Azərbaycan hakimiyyəti əvvəlki dövrlə müqayisədə bu seçki daha yaxşı təşkil edib və bizə mane olunmur". **E.Musayevin sözlərinə görə, seçicilərlə görüşlər keçirilir, hava şəraiti nəzərə alınaraq qapalı yerlər ayrılıb, vətəndaşların problemləri dinlənilir, şikayətləri eşidilir:** "Azərbaycan ilk dəfə bütün ölkəboyu seçki keçirəcək. Azad edilən ərazilərdə, 30 il terrorçu yuvasına çevrilmiş Xankəndidə səsvermə olacaq. Bundan gözəl, qürurverici hadisə ola bilməz. Təbii ki, hakim partiyanın namizədi İlham Əliyevin reytinqinin yüksək olduğunu etiraf edirik, seçkinin favoritidir, Qarabağı tamamilə azad etmiş qalib bir liderin seçkidə də qələbə qazanmaq şansı yüksək də olmalıdır, amma bizim hədəfimiz daxili inkişafın gücləmməsidir. Bu seçki milli birliyi nümayiş etdirməlidir. Ona görə də Fransa, onun təsiri altında olan Avropa İttifaqının hansı bəyanatlar səsləndirməsi həlledici faktor sayılmır".

Prezidentliyə namizəd Fuad Əliyevin seçki qərargahının rəhbəri Xəzər Teyyublu isə vurğuladı ki, Avropa İttifaqı Azərbaycanla çox yaxşı enerji əməkdaşlığına malikdir, lakin onun bəzi qolları rəsmi Bakı əleyhinə bəyanatlar səsləndirir: "Xüsusən də Avropa Parlamenti bu məsələdə ardıcıl şəkildə qərəz nümayiş etdirir. Biz ölkədə problemlərin olmasını inkar edə bilmərik. Sadəcə, Qərb bunu kampaniyaçılığa çevirməklə səmimi olmadığını göstərir. Fransanın son illər açıq şəkildə düşmənçilik siyasəti Ermənistanı ötüb keçib. Makron administrasiyası, Fransa Senatı, Avropa Parlamentində olan ermənipərəst deputatlar müntəzəm şəkildə ittihamlar irəli sürür, Azərbaycanı Qarabağa "hücumda" günahlandırır. Yəni absurd və nahaq bir mövqe sərgilənir ki, Avropa dəyərlərinə, beynəlxalq hüquqa ziddir". **X.Teyyublu hesab edir ki, bütün bunlarla yanaşı, Azərbaycanda keçiriləcək seçkilərə kənar müdaxiləyə imkan verilməyəcək:** "ATƏT-in, digər təsisatların seçkinin nəticələri haqda verəcəyi rəyin nədən ibarət olacağını bilmirəm. Amma yaxşı olar ki, həmin təşkilatlar 30 il işğal altında olmuş ərazilərdə seçkilərin keçirilməsinə münasibət bildirsinlər, Azərbaycanın ədaləti bərpa etdiyini dilə gətirsinlər, bacarıqsızlıqlarını, işğal faktına susmalarını etiraf etsinlər. Təəssüf ki, Qərb dairələri, beynəlxalq təşkilatlar obyektivliyini itiriblər. Fransanın isə bizim işimizə qarışmağa mənəvi haqqı yoxdur. Buna görə də cavabımız xalqımızın hamılıqla seçki günü səsvermə məntəqələrinə getməsi olmalıdır".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Yeddinci parlament nə vaxt seçilər?

Növbəti parlament seçkilərinin 2025-ci il fevralın 9-da keçirilməsi ehtimal olunur, amma...

Dövlət müstəqilliyi 1991-ci ildə bərpa olunan Azərbaycanda parlamentin (Milli Məclis) səlahiyyət müddəti 5 ildir. İlk parlament seçkilərindən (12 noyabr 1995) sonra qüvvəyə minən konstitusiya seçkilərin 5 ildən bir noyabr ayının birinci bazar günü keçirilməsini müəyyən edib, 2000, 2005, 2010 və 2015-ci illərdə parlament həmin hökmə uyğun seçilib.

Altıncı parlament 2020-ci il noyabrın 1-də seçilməli idi. Amma 2016-cı ildə yenilənən konstitusiya prezidentə Milli Məclisi buraxmaq səlahiyyəti verib, 2019-cu il dekabrın 5-də beşinci parlament buraxılıb, 2020-ci il fevralın 9-da növbədənkənar parlament seçkiləri keçirilib.

Novator.az bildirir ki, Milli Məclisin səlahiyyət müddətinin hesablanması onun birinci iclasının keçirildiyi gündən başlanır. İndiki parlamentin ilk iclası 2020-ci il martın 10-da keçirilib. Bu hesabla növbəti parlament seçkilərinin 2025-ci il fevralın 9-da keçirilməsi ehtimal olunur.

Ancaq konstitusiyaya əsasən, növbədənkənar seçkilərdə seçilən parlamentin səlahiyyət müddəti 5 ildən az ola bilər. Bu halda növbəti parlament seçkiləri növbədənkənar seçkilərdə seçilən parlamentin səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar gününə düşür. Altıncı parlamentin səlahiyyət müddətinin beşinci ili 2024-cü ilə təsadüf edir və noyabrın birinci bazar günü - ayın 3-də yeni parlament seçilə bilər.

Milli Məclisin buraxılması halında parlament seçkiləri daha tez, buraxılma qərarı verilməndən 60 gün ərzində keçirilməlidir.

Parlament 125 deputatdan ibarət olmalıdır, ancaq hazırda 116 nəfər mandat daşıyır. 2020-ci il fevralın 9-da keçirilən seçkilərdən dörd gün sonra 4 dairə üzrə nəticələr ləğv edilib, parlament 121 nəfərlə fəaliyyətə başlayıb.

Səlahiyyəti dövründə Milli Məclisin 3 üzvü vəfat edib, 1 üzvü azadlıqdan məhrum olunaraq kürsüsünü itirib, 1 üzvü dövlət orqanında vəzifəyə keçdiyi üçün mandatı təhvil verib.

Prezident İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyası parlamentdə 69 deputatla təmsil olunur.

Vətəndaş Həmrəyliyi Partiyasının 3, Respublikaçı Alternativ Partiyası, Demokratik İslahatlar Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Ana Vətən Partiyası, Milli Cəbhə Partiyası, Vəhdət Partiyası, Demokratik Maarifçilik Partiyasının 1 mandatı var.

36 deputat partiyasızdır.

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Prezident Əliyevin o təklifi: BMT-nin baş katibi üç ölkənin adını çəkdi

Siyasi ekspert: "BMT yaranan zaman qəbul olunan nizamnamə dəyişən dünyanın tələblərinə əsla cavab vermir"

"Bu gün bir sıra böhranlarda İsrail, İran, Türkiyə kimi orta səviyyəli ölkələr BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən (Rusiya, Çin, ABŞ, Fransa, Böyük Britaniya), BMT-nin baş katibindən daha çox təsirə malikdir". BMT-nin baş katibi Antonio Quterreş Davos Dünya İqtisadi Forumunda deyib.

"Çox maraqlıdır. Bu gün BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü daha az təsirə malikdir. Siz etiraf etməlisiniz ki, bu gün baş verənlərə böyük güclərdən daha çox təsir göstərən orta güclərimiz var", - Quterreş bildirib. "İsrail, İran və Türkiyə kimi ölkələr, mənim yaxın keçmişdə üzləşdiyim böhranlarda, həftələrlə bir şeydə razılaşdıqları bir mətni qəbul etmək üçün mübarizə aparan Təhlükəsizlik Şurasının beş daimi üzvündən daha təsirli olduqlarını sübut etdilər", - deyə o bildirib.

Prezident İlham Əliyev də BMT-də ciddi islahatlara ehtiyac olması ilə bağlı bir neçə dəfə mövqe bildirib. Azərbaycan Prezidenti qeyd edib ki, xüsusilə Təhlükəsizlik Şurasının tərkibinə yenidən baxılmalıdır.

Xüsusilə də son 30 ildə baş verən hadisələr, siyasi-hüquqi mənzərə BMT-də islahatların zəruri olduğunu qeyd-şərtsiz təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də Təhlükəsizlik Şurasında yer alan ölkələr istənilən qərarı qəbul edirlər, istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Hətta artıq bəzi beynəlxalq hərbi əməliyyatlarda BMT Təhlükəsizlik Şurasının mövqeyinə (icazəsinə) ehtiyac yoxdur.

İkincisi, Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Azərbaycan uzun müddət qərəzli yanaşma ilə üzləşdi. Söhbət 4 qətnamənin yerinə yetirilməməsindən gedir. Bu hal Birləşmiş Millətlər Təşkilatının nüfuzuna, reputasiyasına zərbə, beynəlxalq hüquq normalarına hörmətsizlik, laqeydlik və etinasızlıq idi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etməklə dünyanın 5-dən böyük olduğunu sübuta yetirdi.

Faktlar təsdiqləyir ki, BMT-də islahatların əleyhinə çıxanlar elə Təhlükəsizlik Şurasının 5 daimi üzvü sırasında yer alan dövlətlərdir. Çünki onlar ənənəvi mövqelərini və təsir imkanlarını əldən vermək istəmirlər. Bütün hallarda Təhlükəsizlik Şurasının strukturunda dəyişiklik edilməli, "beynəlxalq birliyin konstitusiyası" adlandırılan BMT Nizamnaməsində əlavələr və düzəlişlər olmalıdır.

Siyasi şərhçi Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, BMT-də islahatlara ehtiyac olduğu ilə bağlı uzun illərdir ən yüksək tribunalardan bəyanatlar verilir. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə prezidenti Ərdoğan, BMT Baş Katibi Quterreş, o cümlədən də Almaniya, Macarıstan, İtaliya, Yaponiya xarici işlər nazirləri və bir çox digər siyasilər islahatların qaçılmaz olduğunu dəfələrlə bəyan ediblər. Həqiqətən də BMT-də ciddi islahatların keçirilməsi şərtdir: "Əvvəla ona görə ki, 1945-ci ildə formalaşan və həmin vaxt öz sıralarında cəmi 50 ölkəni birləşdirən BMT-də artıq 193 ölkə fəaliyyət göstərir və təbii ki, sıraları dörd dəfəyə yaxın böyüyən bir təşkilat əvvəlki qaydada fəaliyyət göstərə bilməz. İkincisi, keçən təqribən 80 illik dövr ərzində təkcə zaman dəyişməyib, həm də dövlətlər dəyişib, dünyada yeni reallıqlar yaranıb. BMT yaranan zaman qəbul olunan nizamnamə isə dəyişən dünyanın tələblərinə əsla cavab vermir. Məhz bu səbəbdən də bir sıra hallarda BMT qlobal miqyasda baş verənlərə operativ yanaşma sərgiləyə bilmir".

Ekspertin sözlərinə görə, BMT daxilində islahatların aparılmasının ən çox zəruri olduğu qurum şübhəsiz ki, Təhlükəsizlik Şurasıdır. Cənab Prezident Ərdoğanın "Dünya beşdən böyükdür", Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasında bir daimi yerin İslam Əməkdaşlıq Təşkilatına, daha bir yerin Qoşulmama Hərəkatına verilməsi ilə bağlı çağırışları da məhz bu zərurətdən irəli gəlir: "Həqiqətən də missiyası beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqqiyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi olan bir qurumun beş ölkənin inhisarında saxlanılması heç bir halda ədalətli sayıla bilməz. Beş ölkənin maraqları və bir-biri ilə rəqabəti nəticə etibarilə bütün üzv dövlətlərin hüquqlarının heç bir ayrı-seçkilik qoyulmadan müdafiə olunmasını imkansız edir. Xüsusilə Türkiyənin dünyada, regionda təsir imkanları, nüfuzu bu gün, məsələn, Fransanın nüfuzundan daha güclüdür. Türkiyəyə dünyanın daha çox dövlətlərinin etimadı var, nəinki Fransaya. Ona görə də BMT-də islahatlar keçirilməlidir, Türkiyə və digər nüfuzlu dövlətlər BMT-nin ciddi söz sahibi olan üzvləri statusunu əldə etməlidirlər. Yalnız bu yolla BMT-ni beş dövlətin girovluğundan xilas etmək mümkündür.

Düşünürəm ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılması ilə yanaşı Baş Assambleyanın vəzifə və imkanları da genişləndirilməlidir. Qəbul edilən qərarların dəqiq icra mexanizmləri yaradılmalıdır. Əsas məqsəd hər bir üzv dövlətin hüquqlarının təmin edilməsi olmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Şeyxülislam dini konfessiyaların rəhbərlərini QMİ-yə topladı

Dini liderlərin növbədənkənar prezident seçkisi ilə bağlı müracəti yayıldı

Azərbaycandakı dini konfessiyaların rəhbərləri prezident seçkisi ilə əlaqədar müraciət yayıb. Müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski və Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili imzalayıblar.

Müraciət QMİ-nin növbədənkənar prezident seçkisi ilə bağlı iclasında elan olunub.

Müraciətdə deyilir ki, Azərbaycan mühüm siyasi hadisə ərəfəsindədir. "Bu seçkilər müstəqillik tariximizdə bütün Azərbaycan Respublikası ərazisində həyata keçiriləcək ilk seçki olaraq xüsusi önəm, tarixi dəyər kəsb edir. Xalqımıza hamılıqla növbəti seçkilərə qatılmaq və müstəqil iradə ortaya qoymaq fürsəti verib. Xalqımız Uca Allahın köməyi ilə Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarı ətrafında sıx birləşərək Ali Baş Komandanın əzmi və iradəsi, şanlı ordumuzun rəşadəti ilə məkrli düşmənə diz çökdürüb. Mübarək üçrəngli bayrağımızı Qarabağda və işğaldan azad edilmiş bütün ərazilərimizdə yüksəldən belə bir milli rəhbər və dövlət başçısı Ulu Tanrının bizlərə əvəzsiz lütfüdür. İlham Əliyev Qarabağın xilaskarı olaraq öz adını Azərbaycan tarixinə əbədi həkk edib. Hazırda işğaldan azad edilmiş torpaqlarımızda Böyük Qayıdış Proqramı çərçivəsində nəhəng quruculuq işləri aparılaraq həyat yenidən dirçəldilir və erməni vandalizminin ağır nəticələri aradan qaldırılır".

Müraciətdə o da qeyd olunub ki, 2003-2023-cü illər ərzində Azərbaycanda yüzlərlə tarixi məscid və ziyarətgahlar, eləcə də kilsə və sinaqoqlar təmir olunmuş, yeniləri inşa edilib.

"Ölkədə fəaliyyət göstərən bütün dini konfessiya və icmalara dövlət büdcəsindən hər il milyonlarla manat dəyərində maddi vəsait ayrılır, din xadimlərinin maddi təminatının yaxşılaşdırılması üçün yardımlar edilir.

Prezident İlham Əliyevin dini cameə ilə mütəmadi görüşləri, ibadət yerlərinin açılışında şəxsən iştirakı, əlamətdar bayramlar münasibətilə dini icmalara rəsmi təbrik məktubları ünvanlaması, tanınmış din xadimlərinin yüksək dövlət mükafatlarına layiq görülməsi ölkə başçısının cəmiyyətdə dinin roluna, sağlam mənəvi-əxlaqi dəyərlərin təbliğinə və təşviqinə xüsusi diqqət və qayğısının bariz nümunəsidir. Azərbaycan dünyada tolerantlığın və multikultural dəyərlərin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanıldığı və təşviq edildiyi azsaylı ölkələrdəndir.

Səmavi dinlər insanın azad seçim hüququnu təsbit edir, rəhbər, öndər, ixtiyar sahibinin seçiminə böyük əhəmiyyət verir. Uca Yaradanın Zəbur, Tövrat, İncil, Quran kitablarında təlqin olunan dəyərlərlə dünyəvi həyatımıza nəzər salsaq, görərik ki, yaşadığı cəmiyyətin inkişaf və tərəqqisini istəyən hər bir insan haqqı nahaqdan seçməyi bacarmalı, həmişə Haqqın və Ədalətin yanında olmalıdır. Müqəddəs kitablarımızda Ulu Tanrı bizə əta etdiyi əmanətləri haqq sahiblərinə, layiq olanlara verməyi əmr edir. Din dünyəvi dövlətdə siyasətdən ayrı olsa da, dindar şəxs ölkəsinin vətəndaşı kimi taleyüklü məsələlərdə yaxından iştirak etməli, əsl vətəndaş fəallığı göstərməli, düzgün seçim edərək öz səsini ən layiqli namizədə verməlidir.

Ölkəmizin ərazi bütövlüyünü bərpa edən, Qarabağ probleminə son qoyan, milli dəyərlərimizə və mənəvi irsimizə sahib çıxan, Birinci və İkinci Qarabağ müharibələrinin, 20 Yanvar və Xocalı şəhidlərinin qanını yerdə qoymayan, düşmən üzərində möhtəşəm tarixi Zəfərlə onların müqəddəs ruhlarını sevindirən dəmir yumruqlu qalib sərkərdə, müdrik dövlət rəhbəri İlham Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri göz önündədir. Hər birinizi Azərbaycanımız və xalqımız üçün önəmli mahiyyət daşıyan növbədənkənar prezident seçkisində fəal iştiraka və gələcəyimiz naminə doğru seçim etməyə, ən layiqli namizəd - dövlət başçımız İlham Əliyev cənablarına səs verməyə çağırırıq".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2023

İrəvanın "silahlara nəzarət" təklifinə Moskvadan sərt reaksiya

Rusiya Ermənistan və Azərbaycandakı silah bazarını itirməkdən ehtiyat edir, yoxsa...

Baş nazir Nikol Paşinyan hökumətin həftəsonu iclasında deyib ki, Azərbaycan bir tərəfdən Ermənistana ərazi iddiaları irəli sürür, ordusunu gücləndirəcəyini bəyan edir, digər tərəfdən Ermənistanın Fransa və Hindistandan silah almasından şikayətlənir.

"Bəs burada məntiq haradadır? Azərbaycan hesab edir ki, Ermənistanın ordusu olmamalıdır?! Onların anlayışı belədirsə, deməli, Ermənistanın mövcudluq hüququ şübhə altına alınır və bu, qətiyyən qəbuledilməzdir. İstənilən ölkənin hüququ var. Orduya sahib olmaqdır və buna heç kim şübhə edə bilməz", - Paşinyan bildirib.

Onun sözlərinə görə, aydındır ki, bütün bunlar regional təhlükəsizlik kontekstində nəzərdən keçirilməlidir və Ermənistanın Azərbaycanın silahları ilə bağlı, Azərbaycanın da Ermənistanla bağlı narahatlığı ola bilər. "Ona görə də biz deyirik: gəlin elə sülh müqaviləsi imzalayaq ki, müharibə ehtimalının qarşısını alsın", - Ermənistanın baş naziri deyib.

Rəsmi Bakı bu təklifə hələ ki cavab verməyib. Lakin Moskvadan Ermənistanın baş nazirinin təklifinə kəskin reaksiya verib və onu "müxtəlif qeyri-adekvat təkliflər irəli sürmək" əvəzinə Rusiya ilə "düzgün münasibət qurmağa" çağırıb.

Kremlə yaxın çıxışları ilə tanınan sabiq senator Fransa Klintseviç Paşinyanın təşəbbüsünü "qeyri-adekvat" hesab edib, çünki Azərbaycan tərəfi öz imkanlarına görə Ermənistanı üstələyir və şübhəsiz ki, bütün məlumatları İrəvana açıqlamaqda maraqlı deyil. Ermənistana gəldikdə isə ekspertin fikrincə, o, "özünə zərbə vurub. Rusiya ilə münasibətlər onun suverenliyinə təhlükə yaradır". Lakin onun sözlərinə görə, "vəziyyəti düzəltmək hələ də mümkündür".

"Ermənistan üçün yeganə xilas yolu Rusiya ilə düzgün, dostluq münasibətləridir. Yalnız Rusiyaya güvənmək Ermənistanın sağ qalmasına kömək edə bilər", - Klintseviç bildirib.

Rusiyalı siyasətçinin fikrincə, Ermənistan rəhbərliyi "Sem dayı"ya çox da güvənməməlidir. "Onlar Ermənistanı öz maraqlarına uyğun zamanda tərk edəcəklər. Son nəticədə hər şeyi itirəcək".

Bu arada məlum olub ki, Rusiya Ermənistana yeni silahlar göndərib.

Ermənistan parlamentinin müdafiə komitəsinin üzvü Qaqik Melkonyan yerli mətbuata belə deyib.

Melkonyanın dəqiq hansı silahlardan söhbət getdiyindən xəbərsiz olduğunu deyib. O əlavə edib ki, bu silah partiyası daha əvvəl Rusiya ilə imzalanmış müqavilə çərçivəsində Ermənistana çatdırılıb.

"Silahlara nəzarət" təklifinə sərt reaksiya Rusiyanın Ermənistan və Azərbaycandakı silah bazarını itirmək riskindənmi qaynaqlanır?

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov "Yeni Müsavat"a açıqlamasında erməni tərəfin sülh müqaviləsi imzalamaq niyyətində olmadığını bildirdi: "Nikol Paşinyan "silahlara nəzarətlə" bağlı etdiyi son çağırışla bir daha təsdiq etdi ki, Ermənistan sülh müqaviləsini bağlamaq haqqında belə düşünmür. Onun bu məsələdə tamamilə başqa hədəfləri var. Bir sözlə, Ermənistanın indiki rəhbərinin son üç ildə sülh müqaviləsi ətrafındakı manevrləri mahiyyət etibarilə onun sələflərinin 30 ildə münaqişənin həlli ilə bağlı Azərbaycanla oynamaq istədikləri oyunlarla eynidir. Bu qazanılan vaxt ona yeni ordu quruculuğu, ölkəsinin hərbi gücünü artırmaq üçün hava-su kimi vacibdir. Ona görə də kənardan Ermənistanın sülh müqaviləsini bağlamağa çox yaxın olduğu görünsə də, realda Paşinyan hakimiyyəti bundan çox uzaqdır. Bu gün Ermənistanda böyük əksəriyyət Paşinyanın onları ağ günə çıxaracağı, Ermənistanı Rusiyanın caynağından xilas edərək, Qərbin qoynuna aparacağı kimi illüziyalarla yaşayır. Reallıqlar isə tam başqadır - Ermənistanda Paşinyan qədər bütün bu gedişlərin əsassız bir xülya olduğunu bilən ikinci adam yoxdur. Paşinyan ikibaşlı oyunlarına görə artıq Rusiyadan bir neçə ciddi xəbərdarlıqlar alıb. Növbəti xəbərdarlığın nə ilə bitəcəyinə isə heç kim təminat verə bilməz. Bu Rusiyadır - o da siyasət meydanında oyun qaydalarına heç də həmişə riayət etmir. Lakin Ermənistan Rusiya deyil. Rusiya oynadığı qaydasız oyunların arxasında öz hərbi gücü, nüvə silahı ilə dayanır. Bəs İkinci Qarabağ savaşında ordusu darmadağın edilmiş, de-fakto dövlət deyil, Cənubi Qafqazda Rusiyanın forpostu olan Ermənistan nəyə güvənir? Fransa kimi siyasi əxlaqsızlığın zirvəsində dayanan və öz maraqları xatirinə bütün dəyərləri istənilən an ayaqlar altına almağı bacaran bir ölkəyə güvənmək Ermənistanı ancaq uçuruma apara bilər. Paşinyan başa düşməlidir ki, tarixdə onun bu gün rəhbəri olduğu Ermənistan kimi kiçik və zəif dövlətlər başından böyük ambisiyalarına görə səhnədən silinib atılıblar. Qarabağda böyük ambisiyalarla yaşayan və bizim torpaqlarda ikinci erməni dövləti qurmağa çalışanların taleyi göz qabağındadır. Bu gün Ermənistan da buna bənzər bir aqibəti yaşamağa yaxınlaşır. Əgər erməni hökuməti vaxtında ayılmasa, Ermənistanda yaşayan ermənilər də Qarabağ torpaqlarımızda kök salmış ermənilərin aqibətini yaşamalı olacaqlar".

Sabiq nazir fikirlərinə bu cür davam etdi: "Məsələyə bir qədər dərindən baxılarsa, mahiyyət etibarilə Ermənistanın durumu ilə vaxtilə Rusiya tərəfindən muxtariyyət verilmiş Qarabağın durumu arasında elə də ciddi bir fərq yoxdur. Qarabağ torpaqlarımıza da erməniləri vaxtilə rus imperiyası yerləşdirmişdi, bu torpaqlarda da onlara muxtariyyəti ruslar vermişdi, indi Ermənistan adlanan bizim qədim torpaqlarımızı da vaxtilə ruslar ermənilərə verib və ruslar onlara bu torpaqlarda dövlət yaradıblar. Son zamanlar Rusiya rəsmiləri bəzən ən yüksək səviyyədə bunu Ermənistan hakimiyyətinin yadına salır. Görünən budur ki, Ermənistan da Qarabağın aqibətini yaşaya bilər. Çox istəyən həmişə azdan da məhrum olur və ya sirkə nə qədər tünd olarsa, öz qabını çatladar deyiblər, atalar. Vaxtilə biz də Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət təklif edirdik. Ancaq onlar bundan israrla imtina etdilər. Nəticə - Qarabağ tam ermənisizləşdi. Ermənistan da bu gün onu yaradan Rusiya ilə "siçan-pişik" oynamaqla bu aqibətə yaxınlaşır. Dünyada və bölgəmizdə baş verən ciddi geosiyasi proseslər, regionda Türkiyənin və Azərbaycanın rolunun yetərincə güclənməsi fonunda sabah nələrin baş verəcəyinə indidən qiymət vermək nə qədər çətin olsa da, üfüqdə Ermənistanın Qarabağın aqibətini yaşamasının işartıları görünməkdədir. Əlinə düşən ilk fürsətdə Ermənistandan qaçmağa çalışan və bunu özünün həyat uğuru hesab edən ermənilərin sayının həndəsi silsilə ilə artması da çox mətləblərə aydınlıq gətirir və bizə haqqı olanımızın qaytarılmasının tarixi zəmini yetişir..."

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"



Kərki kəndinin işğalından 34 il ötür

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun yaşayış məntəqələrindən olan Kərki kəndinin işğalından 34 il keçir. "Report"un yerli bürosu xəbər verir ki, 20 Yanvar faciəsi ərəfəsində ermənilər Naxçıvan Muxtar Respublikasını işğal etməyə cəhd göstəriblər.

Belə ki, 1989-cu il dekabrın 14-də ermənilər Kərkik, Sədərək, Günnüt və Havuş kəndlərini güclü atəşə tutublar. 1990-cı il yanvarın 15-dən isə hücumlar daha intensiv hal alıb.

Güclü müqavimətə baxmayaraq, yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunub. Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev və İdris Məmmədov qəhrəmancasına döyüşərək şəhid olublar.

Hadisələrin canlı şahidlərinin sözlərinə görə, həmin gün kənd səhər saat 4 radələrindən axşamadək şiddətli atəşə tutulub. 30 nəfərədək Kərki sakini Şərur Rayon Polis Şöbəsinin 3 əməkdaşı ilə birlikdə 2 mindən çox silahlı erməniyə qarşı vuruşsa da, döyüş sursatlarının bitməsi səbəbi ilə onlar yaşayış yerini tərk etməli olublar. İşğaldan sonra Ermənistan hökuməti kəndə Tiqranaşen adını verib. Bundan sonra kəndin didərgin düşmüş əhalisini məskunlaşdırmaq üçün Kəngərli rayonunda yeni kənd salınıb. Məcburi köçkünlər Yeni Kərki kəndində məskunlaşıb.

Kərki kəndinin ermənilər tərəfindən işğal edilməsinin əsas səbəbi həmin yurd yerinin qondarma erməni dövlətinin ərazisi ilə əhatə olunması idi.

Qeyd edək ki, Naxçıvanın Kərki kəndi ilə yanaşı hazırda Qazax rayonunun 7 kəndi də Ermənistanın işğalı altındadır. 44 günlük Vətən müharibəsindən sonra Qazağın 7 kəndi və Kərkinin qaytarılması delimitasiya prosesinin tələbinə uyğun aparılmalıdır. Lakin Ermənistan hələ bundan imtina edir.

Azadlığın yolu

Zamin HACI
zaminhaci@gmail.com

Bəşər tarixində hər cür hüquq, qanun sistemləri olmuşdur. Məsələn, hazırda dünyadakı respublika tipli dövlətlərin hamısı Roma hüququna əsaslanır. Bu hüququn baş prinsipi isə vətəndaşların öz aralarında və dövlətlə qarşılıqlı müqaviləsini nəzərdə tutur. Anqlosakson hüququnda presedentlər əsas götürülür. İranda mollalar qanundur, Somalidə, ümumiyyətlə, qanun-zad yoxdur.

Bəs bizdə hansı sistemdir? Məncə, buna "Molla Nəsrəddin sistemi" demək olar. Ya da ipdə qalan buzov hüququ. Deyir Mollanın iki buzovu varmış, biri ipi qırır, qaçır. Molla çomağı götürür, başlayır ipdə qalan buzovu çırpmağa. Arvadı söylənir ki, a kişi, sən qaçanı yox, ipdə qalanı niyə döyürsən, bunun günahı nədir, Molla deyir: "Sən bilmirsən, bu ipi qırsa, o birisindən də bərk qaçacaqdı".

Köhnə vaxtlarda bizim əmək və əhalinin sosial müdafiəsi nazirimiz var idi, bu yoldaşı 2021-ci ildə korrupsiya ittihamı ilə içəri basmışdılar. Yeyinti ümumilikdə nə qədər olsa yaxşıdır? Əşşi, heç zad, xırda-xuruş, qəpik-quruş: 27 milyon manat. Nazir 13 ay içəridə qaldı, bu müddətdə onun məhkəməsi də guya davam edirdi, əslində heç zad davam eləmirdi. Məsələn, təkcə 1 ildə nazirin məhkəməsi 38 dəfə təxirə salınmışdı. Tragikomik səbəblərlə: gah hakimin xalası ölürdü, gah prokuror dişini düzəltdirməyə gedirdi, gah vəkil Bodrumda qaralmaqda olurdu və sairə. Bəzən müttəhimin məhkəməyə gəlməməsi də təxirə gətirib çıxarırdı. Soruşa bilərsiniz ki, bu necə olur, axı onu tutmuşdular? Nazir səhhətinə görə ev dustaqlığına buraxılmışdı - bu da bizdə humanizmin təntənəsidir.

2024-cü ilin yanvarında prosesi daha uzatmağa yer qalmadı, nazirə şərti cəza verib çölə buraxdılar. İddialara görə, müttəhim dövlətə vurduğu ziyanın 20 milyonunu cibişdanından, 3 milyonunu villa-milla sataraq ödəyibdir, yerdə qalır 4 milyon, onu da imam ehsanı kimi sənədləşdirək, çıxsın getsin. Belə şeylərə görə vətəndaşı incitmək olmaz.

Mən bu prosesləri izlədikcə belə qənaətə gəlirəm ki, yeyinti eləyəndə gərək çox eləyəsən. Onda adamı tutmurlar. 20-30 min yeyinti eləyən neçə adam var, bu saat türmələrdə çürüyür. Nə 20-30, hətta 2 min rüşvətə görə yatanlar var. Bacar, "ipdə qalma". Buzovun bərk gedəni olmaq lazımdır. Hələ indi bir az yaxşıdır, sovet dövründə bizim qonşu kənddə dükançını 20 qəpiyə görə tutmuşdular. Tutanlar da kim idi? 2 milyonu udanlar. Axırda hökumət dağıldı.

Hələ bir keçmiş MTN generalı var, şəxsi türmələr açmışdı. Villa, obyekt, pul zibil kimi idi. Səhv eləmirəmsə, 32 milyonluq əmlakı müsadirə olunmuşdu. Neçə il türmədə qaldı? Cəmi-cümü 3 il. Əfv olundu, indi isə... əmlakları geri istəyir. Bir az qızışsa, Metro Tağının hakim övladını təzədən, elə məhkəmə binasından girov götürməyə qadirdir.

Azərbaycandan milyardlar çıxaran adam London univermaqlarından bahalı bazarlıqları ilə qəzetlərə düşmüşdü, bizdə isə ölkəyə 40 min dollar gətirənləri tutub basırlar (hesab edək o iddialar doğrudur və qaçaqmalçılıq baş veribdir). Məntiqlə, xariciləri çalıb-çapanları, valyutanı vətənə daşıyanları mükafatlandırmaq lazım idi. Bizdə isə valyuta çıxaranlar ödül alır.

Ona görə də nazirlərimiz iri projelər işləməlidir. Azadlığın yolu böyük pullardan keçir. Rəhmətlik şair demişkən, azadlığı istəmirəm zərrə-zərrə, qram-qram...

General Tüfekçi Bakıya niyə gəlmişdi - yeni silahlar və Şuşa...

Ekspert: "Proqnozlar Cənubi Qafqazda yeni müharibə ehtimalının olacağını deyir"

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda işgüzar səfərdə olan Türkiyənin milli müdafiə nazirinin müavini Celal Sami Tüfekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə nazirlikdən məlumat verilib.

Sonra Müdafiə Nazirliyində türkiyəli nümayəndə heyəti ilə görüş keçirilib. Nazir Azərbaycanla Türkiyə arasında digər sahələrdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın daim inkişaf etdiyini bildirib. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi vurğulayıb. Müdafiə naziri ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəyə çatmasında hər iki dövlət başçısının səmimi münasibətlərinin əvəzsiz rolu olduğunu qeyd edib.

Tüfekçi isə öz növbəsində ölkəmizə səfərindən məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirib.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri cənab Cahit Bağcının və qardaş ölkənin müdafiə sənayesi şirkətləri rəhbərliyinin də iştirak etdiyi görüşdə hərbi təchizat sahəsində birgə layihələrin əhəmiyyəti qeyd olunub. Ölkələrimiz arasında hərbi, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Azərbaycan müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakıda işgüzar səfərdə olan Türkiyə milli müdafiə nazirinin müavini Celal Sami Tüfekçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı Türkiyənin müdafiə sənayesi şirkətləri ilə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi arasında əməkdaşlıqların daha da inkişaf etdiriləcəyi vurğulanıb.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq: "Gələn il həm dövlət, həm də özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaq".

Yada salaq ki, Şuşa Bəyannaməsi Bakı-Ankara hərbi əməkdaşlıq əlaqələrini yeni mərhələyə gətirib. Bəyannamədə yazılıb ki, tərəflər dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək. Həmçinin qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcəklər.

Tüfekçi hərbi texniki layihə mühəndisi kimi tanınır və bu profilli müxtəlif şirkətlərdə məsləhətlər verib. Nazir müavini təyinatınadək Rabitə Peykləri Proqramının Direktoru vəzifəsində çalışıb.

Görünən budur ki, əsas profili silahlar olan nazir müavininin səfərinin əsas məqsədi də birgə silah müəssisələri ilə bağlıdır.

Deputat Vüqar İsgəndərov bu səfərin böyük önəm daşıdığını diqqətimizə çatdırdı: "Dünyada Azərbaycan və Türkiyə qədər bütün sahələri özündə əks etdirən birlik, qardaşlıq nümunəsi göstərə biləcək ikinci ölkə tapmaq mümkün deyil. Göz gəzdirsək, bir çox eyni kökü olan xalqlar, dövlətlər mövcuddur. Onların da qarışıqlı dostluğa, qardaşlığa söykənən əlaqələri var. Amma Azərbaycan və Türkiyə arasında təkcə ortaq dil, din, dərin köklər, mədəni dəyərlər deyil, həm də ruhi bağlılıqlar var. İnsan necə ki, özündə olan keyfiyyətləri bir müddət sonra ya qardaşında, ya da övladında görə bilir, həmin keyfiyyətləri duyur, iki qardaş xalq arasında da bunlar müşahidə olunur. Digər yaxın xalqlar arasında bu cür halları görmək mümkün deyil. Ona görə də bu iki dövlət sözün həqiqi mənasında bir millət formatında hazırda dünyada sayılıb-seçilən dövlətlərdir. Hər iki ölkənin liderlərinin həmçinin yaxın dostluq əlaqələri mövcuddur. İki qardaş xalqın ortaq dəyərlərini özündə ifadə edən qərarların müəllifləridir. Buna misal olaraq, Şuşa Bəyannaməsini göstərmək olar. Bizi bu müqavilə bütün sahələr üzrə ortaq sahiblərə çevirdi. Türkiyənin milli müdafiə nazirinin müavini Celal Sami Tüfekçinin ölkəmizə səfərə gəlməsi iki ölkə arasında hərbi sahə üzrə əlaqələrin gələcək inkişafı baxımından daha da önəm daşıyır. Türkiyəli general yalnız ölkəsində deyil, regionda hərbi sənaye sahəsinin mahir bilicisi və mütəxəssisi kimi tanınır. Kifayət qədər təcrübəli insandır. Onun Zakir Həsənovdan sonra müdafiə sənayesi naziri ilə görüşməsi, çox önəmli ortaq məsələsi müzakirə etməsi dediklərimizə əyani sübutdur. Şuşa Bəyannaməsinin bəndlərində hərbi sahə üzrə əlaqələr daha da genişləndirilib. Cənab Prezidentin 2024-cü ildə hərbi sənayenin inkişafı, yeni silahların alınması üçün 1 milyard manatın ayrıldığını deməsi də bu il üçün bir müjdə oldu. Artıq bunun üçün əməli işə də keçilib. Bu səfər yeni işlərin başlanğıcı sayıla bilər".

Hərbi ekspert Səxavət Məmməd isə qeyd etdi ki, Türkiyə ilə Azərbaycan arasında xüsusilə hərbi sahədə əməkdaşlıq ən yüksək səviyyədə inkişaf edir. Azərbaycan Türkiyədən hərbi məhsullar almaqla yanaşı, silah sənayesini də inkişaf etdirmək istəyir: "Artıq Türkiyə şirkətləri ilə Azərbaycan arasında müqavilələr imzalanıb. Bu o deməkdir ki, iki ölkə bundan sonra birgə silah istehsalını da həyata keçirəcək. Azərbaycanın bu baxımdan çox ciddi potensialı var. Türkiyə də bunun fərqindədir. Ona görə də iki ölkə əməkdaşlıq üçün can atır. Azərbaycan silah sənayesini hər gün daha çox inkişaf etdirməyə çalışır. İstər dövlət, istərsə də özəl sektorda inkişaf göz önündədir. Bundan əlavə, Azərbaycan silah sənayesinə ciddi yatırımlar da edir. Nəzərə almaq lazımdır ki, münaqişələrin alovlanması və miqyasının artması silah bazarına da ciddi təsir göstərib. Azərbaycanın istehsal etdiyi atıcı silahlar keyfiyyəti ilə seçilir. Ona görə də alıcısı var. Hesab edirəm ki, Türkiyə ilə bir müasir texnologiyaların tətbiqi ilə daha ciddi nəticələr əldə etmək mümkündür. Bundan əlavə, regionda gərginlik artan xətt üzrə gedir. Yaxın Şərqdə ciddi hadisələr baş verir, bundan əlavə, İran İraq və Pakistana zərbələr endirir, Rusiya-Ukrayna müharibəsi uzanır. Proqnozlar Cənubi Qafqazda da müharibə ehtimalının olacağını deyir. Bu baxımdan Türkiyə ilə Azərbaycanın birgə fəaliyyəti, xüsusilə hərbi sahədəki əməkdaşlığı vacibdir. Bu həm də dövlətlərin təhlükəsizliyi baxımından da çox önəmlidir. Hesab edirəm ki, indiki şəraitdə Azərbaycan və Türkiyənin hərbi rəhbərlərinin tez-tez telefon danışıqları və qarşılıqlı səfərlərinin şahidi olacağıq".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Paşinyan yenə Zəngəzur dəhlizində "ilişdi"

Ermənistanın Zəngəzur dəhlizini "İran yoluna çevirmək" istəyinə Moskvadan tutarlı cavab; Azərbaycanın tələblərinə əməl etməkdən yayınan İrəvanı çətin sınaqlar gözləyir

Rəsmi İrəvan hər cür cəfəng iddialara, yersiz manevrlərə əl ataraq sülh anlaşmasını əngəlləməyə çalışır. Son vaxtlaradək Azərbaycanın guya Zəngəzur istiqamətindən hücuma keçəcəyi barədə sərsəm iddiaları havadarları ilə birlikdə tirajlayan Ermənistan növbəti cəfəngiyyatların arxasında daldalanmağa başlayıb.

Məlumdur ki, Nikol Paşinyan Prezident Əliyevin müsahibəsində toxunduğu məsələlərə lideri olduğu partiyanın toplantısında münasibət bildirib. Paşinyan dəhliz barədə danışarkən deyib ki, Ermənistan İran kimi eyni şərtlərlə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsini təmin etməyə hazırdır. Yəni Paşinyan demək istəyib ki, İranın sərhəd və gömrük xidməti Naxçıvana keçmək istəyən Azərbaycan vətəndaşlarını yoxlayacaqsa, eyni hüquqa Ermənistan da malik olmalıdır. Nikol Paşinyan bildirib ki, Ermənistan da İran kimi eyni şərtlərlə Naxçıvana quru kommunikasiyalarını təmin etməyə hazırdır. Bu, rəsmi İrəvanın Zəngəzur yolunun açılması ilə bağlı yeni "təklifidir". Çünki bir müddət əvvəl Ermənistan hökuməti bu yolda gömrük və keçid-buraxılış məntəqəsi qurmağı iddia edirdi. Paşinyanın məlum açıqlamasını Ermənistan hakimiyyətinin mövqeyindən geri addım atması kimi də qiymətləndirmək mümkündür. Yada salaq ki, Prezident həmin çıxışında Ermənistan rəsmilərinin bu və ya başqa iddialarına cavab verib, yeni ismarışlar göndərmişdi. Zəngəzur yolu ilə bağlı açıqlamalar verən, Ermənistanın ərazi bütövlüyü ilə bağlı canfəşanlıq edənlərə Azərbaycan Prezidenti qəti ismarışını çatdırıb: "Azərbaycandan Azərbaycana insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir". **İlham Əliyev qeyd edib ki, əks halda, Ermənistan əbədi dalan kimi qalacaq:** "Dediyim marşrut (Zəngəzur dəhlizi - red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik". Bu, rəsmi İrəvana və havadarlarına çox qəti ismarış hesab edilir. Ona görə də baş nazir İrandan keçən yolun statusunun Zəngəzur yoluna da şamil edilməsi fikrini söyləyib.

"Ermənistanın baş naziri Nikol Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı açıqlaması əsassızdır. Bu məsələdə onun Azərbaycanla İran arasındakı kommunikasiya xəttini nümunə kimi götürməsi də məntiqsizdir. Çünki burada böyük bir fərq var". Bunu Teleqraf.com-a **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev** deyib. F.Şəfiyev bildirib ki, Zəngəzur dəhlizi məsələsi 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatda öz əksini tapıb: "İranla açılan xəttə isə alternativ yoldur". **Mərkəz sədrinə görə, Ermənistan tərəfi Zəngəzurdan dəhliz açılmasına imkan vermədi:** "Belə olduğu halda, İran ərazisindən kommunikasiya xəttinin açılması təmin edildi. Təbii ki, burada iki yola sərmayə qoymaq heç də sərfəli deyil". **F.Şəfiyev hesab edir ki, İran tərəfi burada Azərbaycana qarşılıqlı razılaşma əsasında yol verib:** "Əslində İranın belə bir öhdəliyi yox idi. Bunun əksinə olaraq isə Ermənistanın Azərbaycanın Naxçıvana çıxışı üçün yol verməklə bağlı öhdəliyi var. Ona görə də burada vəziyyət də tamamilə fərqlidir". "Report" bu mövqe ilə bağlı şərhində yazıb ki, ABŞ da Paşinyanın bu fikrini dəstəkləyir. Bu, Ermənistan hakimiyyətinin taleyüklü məsələyə təkbaşına qərar vermək qabiliyyətində olmadığını da göstərir. Ehtimal etmək olar ki, Zəngəzur yolu ilə bağlı icazəni İrəvan Vaşinqtondan alıb.

Bu arada, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Zəngəzur dəhlizindən danışıb. "Yeni Müsavat"ın məlumatına görə, diplomat Ermənistanın baş naziri Nikol Paşinyanın "Ermənistan Azərbaycanla Naxçıvan arasında quru əlaqəsini İran vasitəsilə olduğu kimi təmin etməyə hazırdır" - açıqlamasına sərt reaksiya verib. Qeyd edib ki, bu marşrutları müqayisə etmək düzgün deyil. "Cənab Paşinyanın Ermənistan ərazisindən tranzit üçün eyni şərtləri (Azərbaycandan Naxçıvana İran ərazisindən keçməklə tranzit üçün istifadə olunacaq şərtlər nəzərdə tutulur) istədiyi barədə dediklərində heç bir məntiq görmürəm. Açığını desəm, bu marşrutları müqayisə etmək yersizdir", - Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri bildirib.

Rusiyanın baş diplomatı onu da deyib ki, Putin, Paşinyan və Əliyev arasında üçtərəfli razılaşmalar çərçivəsində Zəngəzur dəhlizi heç vaxt müzakirə olunmayıb. Lavrov 10 noyabr 2020-ci il tarixli bəyanatda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılacağının və Ermənistanın Azərbaycanla Naxçıvan arasında nəqliyyat kommunikasiyalarının təhlükəsizliyinə zəmanət verdiyinin, nəzarətin isə Rusiya Federasiyası FTX-nin sərhəd xidməti tərəfindən həyata keçiriləcəyinin əks olunduğunu xatırladıb. Göründüyü kimi, Paşinyanın "qara günləri" qabaqdadır, Rusiyadan da tərs şillə aldı...

Deputat, Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələdə bir neçə məqamı nəzərə almaq lazımdır: "Məlumdur ki, İran ərazisindən keçən yol əvvəllər də var idi və Naxçıvanla əlaqəmiz həyata keçirilirdi, gömrük və digər prosedurlar da tətbiq edilirdi. Lakin 10 noyabr sazişinə uyğun olaraq, Zəngəzur əsasən dəhliz kimi nəzərdə tutulurdu. Həmçinin dəhlizin iki tərəfdən mühafizəsini Rusiya FTX-nin Sərhəd Qoşunları həyata keçirməli idi. Buna alternativ olaraq Paşinyan hakimiyyəti əlavə hərbi birləşmələr yaratdı və dəhlizin qorunmasının onlara həvalə ediləcəyini rəsmiləşdirdi. Bu yolla Rusiyanı dəhlizdən aralamağa cəhd etdi, baxmayaraq ki, Rusiya Ermənistanın dövlət sərhədlərini qoruyur. Deməli, məqsəd həm də Rusiyanın imkanlarını azaltmaqdır". **A.Nağıyevin sözlərinə görə, bu isə həm Vaşinqtonun, həm də Qərbin çoxdankı istəyidir**: "Digər məsələ Paşinyan hakimiyyətinin ortaya atdığı Hindistan-İran marşrutu üzrə daşınmalar məsələsidir. Paşinyan hakimiyyəti bildirir ki, ticarət yolu erməni şirkətləri üçün, o cümlədən məhsullarının Hindistana ixracı baxımından yeni imkanlar açır. Ona görə də Ermənistan tərəfinin Hindistanda geniş nümayəndəliyi olmalıdır. İrəvan ümid edir ki, ticarət yolunun işə salınması Ermənistan, Hindistan, İran, daha sonra Gürcüstan və Aİ arasında və əks istiqamətdə ticarət dövriyyəsini və yükdaşımaları kəskin şəkildə artıracaq. Bu məsələni 2024-cü ilin may ayına qədər həll etmək fikrindədirlər. Buna görə də Zəngəzur dəhlizi məsələsini yubadırlar. Təbii ki, Ermənistan hakimiyyətinin belə bir taleyüklü məsələyə təkbaşına qərar verməsi inandırıcı deyil". **Millət vəkili təəssüflə qeyd etdi ki, beynəlxalq güclər bu problemlərin həllinə öz prizmalarından yanaşırlar:** "Baxmayaraq ki, Ermənistanın, daha doğrusu, Paşinyanın imzası ilə Azərbaycanın Naxçıvana çıxışı üçün dəhlizlə bağlı öhdəliyi var. Perspektivdə Zəngəzur dəhlizinin açılması labüddür, çünki müxtəlif dövlətlərin siyasi iradəsi ilə hərəkət edən və öz müstəqil daxili daxili və xarici siyasəti olmayan Ermənistan istənilən vaxt sadalanan mövqeləri itirə bilər və gələcəkdə də yenə regionla dövlətlərlə müvafiq qərar qəbul etməlidir..."

Politoloq Məhəmməd Əsədullazadə isə deyir ki, Ermənistan rəhbərliyinin konkret olaraq Zəngəzur yolu ilə bağlı şərtlər irəli sürməsi, xüsusilə bunu İranla müqayisə etməsi yolverilməzdir: "Çünki Zəngəzurla bağlı məsələlərdə razılaşma var və Ermənistan öhdəliyə əməl etməlidir. Əvvəl Ermənistan deyirdi ki, Azərbaycan Zəngəzuru silahla almaq istəyir, bunu bəhanə gətirirdilər. Bu bəhanələri də boş oldu. İndi də deyir ki, adı "yol" olmalıdır. Ermənistan bununla Azərbaycanla Naxçıvanı birləşdirən yola maneəsiz giriş-çıxışı vermək istəmir. Bu, çox ciddi məsələdir. Ermənistan bu razılaşmaya əməl etməyincə, sülh müqaviləsi bağlanmaya bilər". **M.Əsədullazadə təsdiqlədi ki, Qərb prosesə özünün nəzarət etməsinə çalışır:** "Ermənistan da müstəqil siyasətə malik deyil. Əgər Ermənistan dəhliz vermirsə, biz Ermənistanla niyə sərhədləri açmaliyiq?! Düşünürəm ki, N.Paşinyan buraya yenidən əlavə qüvvələri cəlb edib, Azərbaycana təzyiq edəcəyini güman edir. Amma Azərbaycan Zəngəzur yolunun maneəsiz giriş-çıxışına nail olmayınca, normallaşma prosesinə getməyəcək. Azərbaycan Zəngəzurda Ermənistanın suverenliyini tanıyırsa, İrəvan nədən çəkinir? Sadəcə, Azərbaycanı növbəti mərhələdə təzyiqdə saxlamaq üçün Zəngəzur yolunda sərhəd və gömrük sisteminin tətbiqində maraqlıdır. Bu, razılaşmaya ziddir və Ermənistan yenidən sülh müqaviləsinin bağlanmasında maraqlı deyil".

Qardaş Türkiyənin ardınca Rusiyanın da məhz Azərbaycanın mövqeyindən çıxış etməsi isə Ermənistanın "ya dəhliz, ya dalan" variantlarından birinə üstünlük verməsinə gətirib çıxaracaq, buna şübhəmiz yoxdur. Seçim Ermənistanındır!

❑ **E.PAŞASOY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Qara kürü bazarı- kìlosu 2000 manat

Ekspert: "Süni kürünü sexlərdə yumurta zülallarından düzəldirlər və..."

Xəzər dənizinin qara kürüsünün satışına icazə verilməsə də, bəzi restoranlarda qara kürüyə rast gəlinir və qiyməti də çox ucuzdur. Bəzi restoran işçiləri bildirir ki, ölkəyə kürü Rusiyadan gətirilir və yüz qramı 340 manatdan başlayan kürüyə tələbat ölkədə az olduğundan, bir çox satış məntəqələrində tapmaq olmur. Bu barədə Bizimyol.info bildirib.

"Azad İstehlakçılar" Birliyinin sədri Eyyub Hüseynov deyib ki, ölkəyə xaricdən də qara kürü gətirilir. Eyni zamanda Həştərxanda süni qara kürü istehsalı da mövcuddur. Bu, Azərbaycanda da var. Onlar çox ucuz qiymətə satılır. "Süni kürünün qablaşdırılmasının arxa tərəfində onun süni kürü olduğu qeyd olunur. AQTA isə onun təhlükəsizliyinə təminat verir və necə deyərlər, o yazını görüb, "okey" deyir. Beləliklə, kürü Azərbaycan bazarına buraxılır. Şübhəsiz ki, qara kürünün qeyri-qanuni istehsalı müəyyən əllərdədir. Çünki biz buna hər yerdə, hətta açıq şəkildə satışına da rast gəlirik. Ancaq "Caspian fish"in bazarlara verdiyi kürülər qablaşdırılmış formada olur. Düşünürəm ki, açıq şəkildə istehsal olunan kürülər qeyri-qanuni şəkildə istehsal olunmuş kürülərdir.

Bu sahəyə nəzarət çox zəifdir. Azərbaycanı kürü ölkəsi bilib, qara kürü adı altında süni kürü alan turistlər də az deyil. Çox təəssüf ki, məsələ beləcə açıq qalıb. Ona görə də istehlakçılara tövsiyə edirəm ki, kürü aldığınız zaman onun üzərindəki yazıları diqqətlə oxuyun və nərə balığının şəklinə inanmayın. Üzərində süni kürü yazılan məhsulların həqiqətən də süni olduğunu bilin, bəzən qeyri-peşəkar adam bunları ayırd edə bilmir" - deyə, qida eksperti qeyd edib.

Yeri gəlmişkən, Azərbaycan qanunvericiliyi nərə balıqlarının ovlanmasını qadağan edir. Bu qadağa nərə balıqlarının populyasiyasını qorumaq və bərpa etmək üçün tətbiq edilib. Hazırda Xəzər dənizində nərə cinsli balıqların sayı kəskin şəkildə azaldığından təbiətdən əldə olunan kürü yüksək qiymətləndirilir və çox baha təklif olunur, lakin cinayət məsuliyyəti yaratdığından açıq satılmır. Buna görə də dənizdən əldə olunmuş bir neçə kiloqram kürü almaq təklifi dərhal şübhə doğurmalıdır. Cinayətə ortaq olmamaq və Xəzər dənizinin unikal ekosisteminə bərpası mümkün olmayan ziyan vurmamaq üçün belə təklifdən qəti imtina etmək tövsiyə görülür.

Qeyd etmək yerinə düşər ki, kürünün tərkibində insan sağlamlığı üçün kritik əhəmiyyət kəsb edən qidalı maddələr, o cümlədən asan mənimsənilən zülallar, yağlar, vitaminlər, fermentlər, minerallar və digər bioloji aktiv maddələrin kompleksi cəmləşir. Növündən asılı olaraq kürünün tərkibində zülallar 21-30 % təşkil etməklə, tamdəyərli sadə komponentlərdən (qlobulinlər - 11-13 %, albuminlər - 2-4 %) və az miqdarda kollagenlərdən (qılaf proteinləri) ibarətdir. Mürəkkəb zülallara aid olan və spesifikliyi ilə seçilən ixtulinin (fosfoproteid) kürünün tərkibində çox olmasına baxmayaraq, digər proteidlərə, o cümlədən qliko və lipoproteidlərə də rast gəlinir. Spektrinə görə kürü zülalları aminturşuları ilə zəngindir. Əvəzolunmaz aminturşuları da (lizin, triptofan, metionin, leysin, izoleysin, valin və s.) daxil olmaqla, demək olar ki, digər bütün aminturşuları balanslı şəkildə kürünün tərkibində mövcuddur.

Nərəkimilər dəstəsinə mənsub olan balıqlardan əldə olunan kürünün tərkibində yağların miqdarı 13-18 % təşkil edir. Bundan başqa, nərəkimilərdən əldə olunan kürüdə yağ kürünün mərkəzi hissəsində, qızılbalıqkimilərin kürüsündə isə qabığın altında toplanır. Odur ki, lipidlərin oksidləşməyə məruz qalması səbəbindən qızılbalıqkimilərin kürüsü bəzən acı dadır. Kürünün fosfolipidlərlə, xüsusilə lesitinlə zəngin olması onun özəl xüsusiyyətlərindəndir. Qeyd edək ki, tərkibində 1-2 %-ə qədər lesitin olan nərə balığının kürüsü qida əhəmiyyətinə görə yüksək qiymətləndirilir. Lipidlərin tərkibində mövcud olan doymuş yağ turşuları ilə müqayisədə Omega - 3, Omega - 6 və Omega - 9 şəklində təmsil olunan mono və polidoymamış ali yağ turşuları (olein, qadolein, nervon, linol, linolen, eykozadien, eykozatrien, araxidon və s.) üstünlük təşkil edir.

Kürü həm də vitamin kompleksi mənbəyidir. Belə ki, bu məhsulun tərkibində yağda həll olan vitaminlərlə yanaşı (A, D, E, K), suda həll olan B qrupu vitaminləri (B1, B2, B3, B4, B5, B6, B9 və B12) də vardır. Niasin (B3), xolin (B4), pantoten (B5) və fol turşusu (B9) kimi tanınan və digər qida məhsullarında az tapılan vitaminlərin də kürünün tərkibində çox olması onun qida dəyərini daha da artırır.

Bəs sağlamlıq üçün kürülərin real, yoxsa saxta olmasını necə ayırd etmək olar?

Zoologiya İnstitutunun hidrobiologiya laboratoriyasının müdiri, dosent Süleyman Süleymanov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, əslində saxta kürü ilə əsl kürünü tanımaq çətin deyil: "Saxta kürü boş olur, müəyyən müddət qalandan sonra kütlə kimi bir-birinə qarışır. Ümumiyyətlə, Xəzərdə nərə balığının kürüsünün ovlanması, əldə olunmasına icazə yoxdur. Amma o qədər qapalı sistemlər var ki, artıq orada kürü əldə olunur və onu restoranlara, digər xarici ölkələrə ixrac edirlər. Adi "8-ci kilometr bazarı"nda farel balıqları satırlar. Həmin balıqların kürülərini yuyur, təmizləyir, satırlar. Yəni o, əsl kürüdür. Amma bizim ölkədə saxta kürülər də çox satılır. Adi toylarda masalara düzülür, deyirlər əsl kürüdür. Yalandır, əsl kürülər tanınır. Turşməzə olur, onların möhkəmliyi olur. Balıqların kürüləri də müxtəlifdir, misal üçün nərənin kürüsü başqadır, dadı da fərqlidir. Kürünün keyfiyyəti necə bilinir? Birinci, ikinci, üçüncü mərhələyə görə qiymətləri üstündə yazılır. Yalançı kürünü ancaq mütəxəssis tanıya bilir. Yəni bundan başı çıxan adam yeyən kimi dadından bilir. Adi mağazada görürsən ki, qızıl balığın kürüsünü 3 manata satırlar. Amma "8 ci kilometr bazarı"dan alırsan, misal üçün, farel kürüsünün yüz qramı 15 manatadır. Qaldı ki, nərə cinsli balıqların kürüsübunlar qapalı sistemdə artırılır, bunlardan kürü alınır, ixrac olunur. Lazım olanda kimlərsə tanışlıqla onlardan alır, yəni bunlar orijinal kürüdür".

Mütəxəssis əlavə edib ki, artıq Xəzərdə o cür kürülü balıqlar əldə etmək çətindir: "Yəni azdır. Əvvəlki illərlə müqayisə edəndə 40-50 dəfə azalıb. Əsl kürülərin də qiyməti 1500-2000 manatadır. Süni kürünü sexlərdə yumurta zülallarından düzəldirlər. Amma bu cür süni kürülər bizim ölkədə istehsal olunmur, xaricdən gətirilir".

Yeri gəlmişkən, 2023-cü ilin yanvar ayında Azərbaycana 156.72 min dollar dəyərində 520 kq nərə balığı kürüsü idxal edilib. Dövlət Statistika Komitəsi xəbər verir ki, bu göstərici 2022-ci ilin yanvar ayı ilə müqayisədə həcm baxımından 3.7% və ya 20 kq, məbləğ baxımından isə 10.9% və ya 19.23 min dollar azalıb. Ötən ilin yanvar ayında ölkəyə 175.95 min dollar dəyərində 540 kq nərə balığı kürüsü gətirilib. Qeyd edək ki, cari ilin yanvar ayında nərə balığı kürüsünün bir kiloqramının orta idxal qiyməti ötən ilin müvafiq dövrü ilə müqayisədə 7.5% azalaraq 301.3 dollar (512.2 AZN) təşkil edib. Hesabat dövründə Azərbaycana gətirilən nərə balığı kürüsünün 100%-i Çindən idxal edilib.

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Bazarlarda pomidor niyə "su qiyməti"nə satılır?

Bakı bazarlarında pomidorun qiymətlərində kəskin ucuzlaşma müşahidə edilir. Hazırkı qiymətlər keçən illə müqayisədə təxminən 2-3 dəfə aşağıdır. Pomidorun kiloqramı 1- 3,50 manata təklif edilir. Bəzi satıcılar deyirlər ki, keçən ilin yanvar ayında 4-5 manatdan aşağı pomidor satılmırdı.

Qış mövsümündə məhsulun kəskin ucuzlaşması nə ilə bağlı ola bilər?

Aqrar sahə üzrə ekspert Mircavid Həsənov "Sputnik"ə deyib ki, Yeni il bayramından sonra müşahidə olunan ucuzlaşma ticarətin zəifləməsi ilə bağlıdır:

"Bayramdan sonra tələb azaldığına görə Azərbaycandan Rusiyaya pomidor ixracı aşağı düşüb. Başqa sözlə, ixrac üçün nəzərdə tutulan pomidorlar daxili bazarlara yönəldilib və ona görə də hazırda daxili bazarımızda pomidorun qiyməti aşağı düşüb. Lakin bu ucuzlaşma müvəqqəti haldır və qiymət yenidən qalxacaq. Açıq sahələrdə pomidorlar çıxandan sonra qiymətlər düşəcək".

Onu da xatırladaq ki, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin məlumatlarına görə, 2022-ci ildə Azərbaycanda pomidor istehsalı 2021-ci ilə nisbətən 2,4 faiz artaraq 826,5 min ton olub. 2022-ci ildə Azərbaycandan pomidor ixracının 97,3 faizi Rusiya bazarının payına düşüb.

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Bölgələr universitetləri qəbul etməyə hazırdırmı?

Ali məktəblərin köçürülməsi bölgələrin sosial-iqtisadi inkişafına müsbət təsir göstərə bilər, amma...

Bir neçə gündür ki, Bakının Baş planı və bundan dolayı görüləcək işlərlə bağlı ictimaiyyətdə geniş müzakirələr aparılır. Bəzi universitetlərin paytaxtdan bölgələrə köçürülməsi məsələsi də müzakirə predmetidir.

Əgər universitetlər Bakıdan köçürülərsə, əksəriyyəti paytaxt sakinləri olan on minlərlə tələbənin rayona getmək, orada yaşamaq, kirayə qayğıları da yaranacaq. Bölgələr buna hazırdırmı, bu istiqamətdə nə kimi işlər görülməlidir?

Universitetlərin regionlara köçürülməsi bölgələrin sosial-iqtisadi inkişafına da müsbət təsir göstərə bilər.

Elm və təhsil eksperti Rizvan Fikrətoğlu (herbiand.az) açıqlamasında bildirib ki, son illər Bakının hədsiz yüklənməsi, tıxacların artması və bu kimi amillər mövcud məsələni daha da aktual edir: "Universitetlərin regionlara köçürülməsi həmin ərazilərimizin inkişafına, paytaxtda tıxacların azalmasına və digər məsələlərin həllinə kömək olsa da, burada fərqli problemlər var. Maraqlıdır ki, kimsə bir fikir səsləndirəndə, davamlı olaraq, hər kəs həmin fikrin ucundan tutub sağa-sola çəkir. Məsələnin incəliyi, mahiyyəti heç kimi maraqlandırmır. Fərqinə varmaq lazımdır ki, bu universitetlər Bakıda ola-ola, yüksək səviyyəli kadrlar cəlb edildiyi halda biz dünya universitetləri reytinqlərində bir yerə çıxa bilmirik. Fərz edək ki, Bakı Dövlət Universitetini Göyçaya köçürdülər. Burada kimlər dərs deyəcək? 400-500 manata hansı alim oraya gedəcək? Göyçay və onun ətraf rayonlarında bu universitetdə dərs deyə biləcək neçə müəllim var? Həmin ərazilərdən olan alimlərin demək olar hamısı Bakıda cəmləşiblər. Universitetlərin rayonlara köçürülməsi tıxac problemlərini qismən azalda bilər, amma keyfiyyətli təhsilə zəmanət verəcəkmi? Əminliklə deyə bilərəm ki, yox. Çünki paytaxtda inkişaf edə bilməyən universitet Lerikdə inkişaf edə bilməyəcək. Yaxud Tibb Universiteti regiona köçürüləcəksə, bu, səhv olar. Müalicə işi ixtisasını oxuyan tələbə Neftçala Rayon Mərkəzi Xəstəxanasında necə praktika keçə biləcək? Mən hazırkı reallığı qiymətləndirərək bu qərardayam".

İqtisadçı-ekspert Eyyub Kərimli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, universitetlərin regionlara köçürülməsinin müsbət təsirləri olacaq: "Mən də bir iqtisadçı kimi bununla bağlı rəylər vermişəm. Həm də ali məktəb müəllimi kimi təkliflərimi irəli sürmüşəm. Biz digər ölkələrə də baxsaq, universitetlər şəhərdən kənarda yerləşir. Mən özüm də xarici dövlətdə təhsil almışam, orada tələbələrin sıxlığı şəhərin tıxacına səbəb olmur, həm də şəhərdə sıxlığın qarşısı alınır. Bu baxımdan, əlbəttə, universitetlərin bölgələrə və şəhər kənarına köçürülməsi şəhərdə sıxlığın, ictimai nəqliyyatın yaratdığı sıxlığı xeyli azaldacaq. Həmçinin bu regionlarda da inkişafa müsbət təsir göstərəcək. Əlbəttə, kirayə evlər, ictimai iaşə müəssisələri, xidmət müəssisələrinin çalışmasına da öz töhfəsini verəcək. Paytaxtın yükü azalacaq. Bu həm də bölgələrə bir canlanma gətirəcək. Sözsüz ki, hazırda bölgələrdə müəyyən infrastruktur var. Əgər tələbələr üçün kampuslar tikilsə, həm də bölgələrdə ictimai iaşə və xidmət sahəsinin keyfiyyətinin artırılmasına, həmçinin rabitə, internet bağlantılarının genişlənməsinə böyük ehtiyac olacaq. Çünki müasir təhsil informasiya texnologitalarının tətbiqindən asılıdır. Digər tərəfdən, hesab edirəm ki, bölgələrdə turizm imkanları da genişlənəcək, çünki tələbələr də öz vəsaitlərini xərcləyəcəklər. Bu da əyləncə mərkəzlərinin inkişafına imkan verəcək. Bir sözlə, universitetlərin bölgələrə köçürülməsi regionların canlanmasına təsir göstərəcək".

Ekspert əlavə edib ki, regionlarda müasir standartların tətbiqi də əhəmiyyətli dərəcədə vacibdir: "Çünki universitet bilik mənbəyidir, müasir tətbiqlərin, araşdırmaların mənbəyidir. Bu baxımdan, bu, təqdirəlayiq hal olar. Həm paytaxtın yükünün azaldılması, həm də bölgələrin iqtisadi, mədəni və sosial inkişafına əhəmiyyətli təsirləri olar".

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

"Ağdam mənim üçün çox vacib torpaqdır - orada Çingizin də qanı var..."

Vahid Mustafayev "VMF" saat fabrikini Ağdamda tikdirmək niyyətindən danışdı: "TV yaratmaqda bizim təvazökar əməyimizə ehtiyac olarsa, buradayıq, salamatıq, hazırıq!"

"VMF" saat fabrikinin sahibi Vahid Mustafayev bildirib ki, işğaldan azad olunmuş Ağdam şəhərində "VMF" markalı saatlar istehsal edəcək zavod açacaq. Bu xəbərin izi ilə Vahid bəylə əlaqə saxladıq, ondan gələcək planları və görüləcək işlər barədə daha ətraflı məlumat öyrənməyə çalışdıq.

Yada salaq ki, Vahid Mustafayev eyni zamanda fəaliyyəti dayandırılmış ANS teleşirkətinin rəhbəridir. Onun sahibi olduğu ANS telekanalının yayımı 18 iyul 2016-cı il tarixindən dayandırılıb, ANS ÇM radiosunun lisenziyası isə ləğv edilib.

- Vahid bəy, Ağdamda "VMF"in açılması ideyasını nə zamandan planlaşdırırsınız? Səhv etmirəmsə, bundan əvvəl bölgələrdə belə zavod olmayıb, bu bir ilkdir?

- Azərbaycanda ilk dəqiq mexanizmlər istehsal edən "VMF" "Azpromo"nun dəstəyi ilə son vaxtlar bir sıra beynəlxalq sərgilərdə milli istehsal olan saatlarını nümayiş etdirib mükafatlara nail olublar. Cenevrə "Watches&Wonders", Kazan İslam ölkələri sərgisi, nüfuzlu və irimiqyaslı Honq Konqda "Watch&Clock Fair", Moskvanın ənənəvi "Moscow Watch Expo" kimi sərgilərdə "VMF" Saat Fabrikinin iştirakı bizə və ümumiyyətlə, Azərbaycana yüksək texnologiyalar sahəsində ad qazandırmaqdan əlavə, yeni potensial müştəri axını yaratdı. Lakin artan tələbatı bizim Qobuda yerləşən fabrikimizin imkanları ilə həyata keçirməyin mümkünsüzlüyünü anladıq və "Azpromo" və Kiçik və Orta Biznesin İnkişafı (KOBİA) Dövlət agentlikləri ilə müzakirələrimizin nəticəsi olaraq İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə görüşdük. Nəticədə Ağdam Sənaye Parkında "VMF" saat fabrikini inşa etməklə bağlı yetkin fikrə gəldik. Biz artıq tələb olunan Biznes Plan və fabrikimizin arxitektor və konstruktiv planlarını İZİA-ya təqdim etmişik. İndiki mərhələdə onlardan cavab gözləyirik ki, bizə yer ayrılsın və Allahın köməyi ilə işə başlayaq. Və dediyinizlə razılaşmaya bilmərəm. Bu layihə doğrudan da nəinki bölgələrdə, ümumiyyətlə, Azərbaycanda, hətta bütün regionda ilk və tək saat fabriki olacaq.

- İşğaldan azad olunan ərazilərin sosial-iqtisadi inkişafı baxımından sahibkarların buraya cəlb olunması dövlət üçün prioritet sayılır. Bu baxımdan, sizcə, "VMF" fabrikinin Ağdam rayonu üçün nə kimi töhfələri və faydaları olacaq? Ümumiyyətlə, neçə işçinin buraya cəlb olunması düşünülür?

- Bilirsiniz ki, mən Birinci Qarabağ müharibəsi zamanı Ağdam uğrunda gedən döyüşlərdə iştirak etmişəm və Şelli kəndində yaralanmışam, Naxçıvanik kəndində isə mənim qardaşım Çingiz həlak olub. İkinci Qarabağ müharibəsi zamanı da Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak etmişəm və dünya mediasına vacib reportajlar çatdırmışam. Odur ki, Ağdam mənim üçün çox vacib torpaqdır - orada bizim qanımız var. İş belə gətirdi ki, bizim "VMF" saat fabrikinin direktoru Orxan Məmmədov da ağdamlıdır və 90-cı illərdə uşaq olarkən öz torpağından didərgin düşüb. İnanmıram ki, bunların hamısı bir təsadüf ola bilər.

Məhz bu səbəbdən "VMF" Holdinqinin Ağdam rayonuna töhfəsi, dəqiq mexanizmlər istehsal edən bir fabriki məhz Ağdam rayonunda yaratması və dünyanın müxtəlif ölkələrinə məhz buradan məhsullarımızı ixrac etməsi respublikamızı texnoloji ölkə kimi tanıtmaqla yanaşı, bu torpaqların Azərbaycanın olmasını bir daha iqtisadi müstəvidə təsdiqləyəcək. Biz fəxr edəcəyik ki, Ağdamın iqtisadi potensialını möhkəmləndiririk. İnşallah, bizim nailiyyətlərimizi görən Ağdam da bizimlə fəxr edəcək!

İşçi sayına gəldikdə, Ağdamın "VMF" fabrikinin inşasında 100-ə yaxın vətəndaşın işlə təmin olunması və fabrikin fəaliyyətində 50-yə yaxın dəqiq mexanizmlər, fiber-lazer, kvars və nanotexnologiyaları səviyyəsində işləmək üçün xarici ölkələrdə təlimlər keçmiş yüksək ixtisaslı kadrlar, iş yerləri yaradılması nəzərdə tutulur.

- Sirr deyilsə, bu zavodun açılması üçün nə qədər vəsait tələb olunur? Sizə bununla bağlı maddi dəstək varmı, yoxsa tam olaraq öz vəsaitiniz hesabına edəcəksiniz?

- Tələb olunan vəsait sirr deyil. "VMF" Holdinqi tam şəffaf çalışan bir təşkilatdır və ictimaiyyətə tam açıqdır. Belə ki, layihənin icrasına ilkin dövrdə ümumi sərmayə qoyuluşunun təxminən 2 milyon manat olması nəzərdə tutulur. Bu məsələdə də şəffaf işləyən müəssisələrə dövlətimizin dəstəyi var. Layihəyə sərf edəcəyimiz sərmayənin 70%-nı Sahibkarlığın İnkişafı Fondunun dəstəyi ilə güzəştli biznes krediti hesabına formalaşması planlaşdırılıb.

- Sahibkar olaraq geri qaytarılan torpaqlarımızda daha nə kimi işlər görməyi düşünürsünüz, bununla bağlı plan və ideyalarınız varmı?

- Çox yaxşı və vacib sualdır. Bildiyiniz kimi, vandal düşmənlərimiz Qafqazın incisi olan Ağdam kimi şəhəri darmadağın edərək daşı-daş üstə qoymayıblar. Biz Ağdamın inşası və yenidən qurulmasında iştirak etməyi özümüzə borc bilirik. Minimum - layihədə iştirak edən əməkdaşlarımız üçün yaşayış imkanları yaratmaqdır. Biz bir millət olaraq Qarabağa dəstək olmalıyıq! Çox yaxşı xatırlayıram, sovet dönəmində bütün torpaqlar kolxoz və sovxozların mülkü sayılırdı və yerli əhali orada, sadəcə, bir iş qüvvəsi kimi yaşayır və çox cüzi məbləğlərə gecə-gündüz çalışırdı. Qazandıqları dəyərlər, kənd təsərrüfatı məhsulları hansısa SSRİ-yə təhvil verilirdi. Düşünürəm, Birinci Qarabağ müharibəsində torpaq itkilərimizin bir səbəbi də bununla bağlı idi. Artıq davamlı vətənpərvər siyasət və ideoloji işin nəticəsi olaraq, millətimiz torpağın qədrini anlayaraq işğal olunmuş əraziləri azad etdi. Lakin indi bizim qarşımızda daha ciddi vəzifə durub - bu torpaqları qoruyub gələcək nəsillərə çiçəklənən bir Azərbaycan diyarı kimi təhvil etməkdir. Bunun üçün də bu torpaqların sahibi olmalıdır. Dövlətimizin işğaldan azad edilmiş zonaların inkişafı istiqamətində apardığı fəaliyyət, "VMF" kimi fabriklərin inşasına imkan yaratması torpaqlarımızı vətəndaşlara bağlayır. Zəfərli ordumuzdan başqa, biz özümüz də həmin gözləri yalın barmaqlarımızla çıxarıb tapdağımız altına atarıq. Düşünürəm, hər bir sahibkar mənim kimi düşünür.

- Bəs işğaldan azad olunan ərazilərdə yeni TV, yaxud radio açmaq kimi niyyətiniz varmı?

- Biz Azərbaycanın əsgərləriyik. Vətən haraya əmr etsə, ora getməyə, o işin qulpundan tutmağa və onu yüksək keyfiyyətlə həyata keçirməyə hazırıq! Sözsüz ki, həmin ərazilərdə məlumat mənbəyi olan TV və radiolar olmalıdır və onlar məhz yerli olmaqla paytaxtdan fərqli olaraq xüsusi ideoloji yükə sahib olmalıdır. İnsanların asudə vaxtını mədəni-maarif nöqteyi-nəzərindən faydalı və eyni zamanda əhalinin ilkin zamanlarda, çətin və ağır quruculuq dövründə onlara dəstək olmalıdır. Bundan əlavə, Qarabağda yeni texnologiyalara arxalanan kinostudiya da olsa, çox faydalı olar. Belə ki, dağıdılmış şəhər və kəndlərin bərpa dövründə vətəndaşlarımızın və zəhmətkeşlərin fədakar əməyi mütləq və sistemli şəkildə lentə alınmalı və bu barədə sənədli və bədii filmlər çəkilməlidir. Ümidvaram ki, dövlət qurumlarımız bu barədə düşünür və bu işdə bizim təvazökar əməyimizə ehtiyac olarsa - biz buradayıq, biz salamatıq, biz hazırıq! Allah Azərbaycanı qorusun!

Fürsətdən istifadə edərək müvəffəqiyyət təmənnası ilə bu müsahibəyə görə sizdən və kollektivinizdən böyük ehtiramlarımın qəbulunu rica edirəm.

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Bakının iki qəsəbəsində qorxulu epidemiyanın səbəbi - quyu suyu?

Ekspert deyir ki, "bu məsələdə ilk növbədə mənbə tapılmalıdır"; **Anar Cəbrayıllı:** "Hepatit A virusunun yayılmasının su ilə heç bir əlaqəsi yoxdur"

Bakı şəhəri Suraxanı rayonu Əmircan və Bülbülə qəsəbələrinin əhalisi arasında 2023-cü ilin dekabr ayından başlayaraq yoluxucu Hepatit A virusu xəstəliyi yayılıb. Bu barədə Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi məlumat yayıb.

Bildirilib ki, xəstəliyin yayılması ilə bağlı tədbirlər davam etdirilir:

"Aparılan profilaktik tədbirlərlə əlaqədar "Azərsu" ASC-nin mütəxəssisləri ilə birgə mərkəzləşdirilmiş içməli su şəbəkəsində laborator müayinə üsullarının tətbiqi ilə monitorinqlər keçirilir. Profilaktik tədbir olaraq su şəbəkəsində qalıq xlorun müvəqqəti yüksəlməsi ilə bağlı Əmircan və Bülbülə qəsəbələrini qidalandıran +54 Ramana mərkəzi su anbarının ərazisində 1 ədəd xlor tərkibli reagent dozalayıcı nasos quraşdırılıb. Eyni zamanda "Azərsu" ASC-nin Suraxanı rayon Sukanal idarəsinin mütəxəssisləri rayon GEM-in əməkdaşları ilə birgə fərdi yaşayış evlərində yerləşən ehtiyat su çənlərinin yuyulub dezinfeksiya edilməsi ilə bağlı tədbirlər həyata keçirib", - məlumatda vurğulanıb.

Qeyd edək ki, yerli əhali buna kanalizasiya sularının içməli suya qarışmasının səbəb olduğunu deyir.

Məsələ ilə bağlı Sabunçu Rayon Xəstəxanasının mətbuat katibi Səkinə Yusibli Publika.az-a açıqlamasında bildirib ki, hazırda xəstəliyin hansı səbəbdən yarandığı araşdırılır: "Dəqiqliklə deyə bilmərik ki, xəstəlik sudan olub, ya hava-damcı yolu ilə keçib. İlk müraciətlər 11-12 yanvar tarixlərində olub. Hələ də davam edir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərən Sabunçu Tibb Mərkəzinin Yoluxucu Xəstəliklər Şöbəsində hazırda hepatit (sarılıq) səbəbi ilə stasionar müalicə alan 14 nəfərin hər birinin yaşayış ünvanı Suraxanı rayonudur və əsasən Bülbülə və Əmircan qəsəbəsi sakinləridir. Onların doqquzu qadın, beşi isə kişidir. Vəziyyətləri stabil olaraq dəyərləndirilir".

Sakinlər isə "Sputnik Azərbaycan"a bildiriblər ki, yoluxanların çoxu Ə.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanasındadır. Xəstəxanadan isə bildirilib ki, Bakı kəndlərindən sarılığa yoluxma ilə bağlı bir müddət əvvəl müraciətlər çox olsa da, hazırda qismən səngimə var. Xəstəxanadan yoluxanların çoxunun "qaraçılar" kimi tanınan köçəri tayfa nümayəndələri olduğu, sarılığa yoluxan uşaqlar arasında sığınacaqlarda məskunlaşan uşaqların da olduğu qeyd olunub.



Bülbülə Qəsəbə Bələdiyyə sədri Natiq Həsənov bildirib ki, qəsəbədə uşaqlar arasında sarılıq xəstəliyi qeydə alındıqdan sonra ərazidəki yeraltı və yerüstü su çənləri boşaldılaraq dezinfeksiya olunub.

"Ərazidə yaşayan insanlara da xəbərdarlıq edilib ki, çiy su içməsinlər. Analizlər götürülərək yoxlanılması üçün göndərilib. Ehtimal olunur ki, yoluxma heç sudan yox, məktəbdə ayaqyolundan yayılıb", - deyə bələdiyyə sədri bildirib.

Həkim-infeksionist Vasif Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, el arasında "sarılıq xəstəliyi" kimi tanınan Hepatit A virusu daha çox antisanitariya səbəbi ilə yayılır: "Bu xəstəlik zamanı əsasən yüksək hərarət, gözdə və bədəndə sarılıq, sidiyin rəngində tündləşmə, halsızlıq, ağrı, ürək bulantısı şikayətləri olur. Xəstəlik daha çox fekal-oral yolla yoluxur.

Bu virus əsasən çirkab, mənbəyi, mənşəyi bilinməyən sulardan, natəmiz yerlərdən, eyni zamanda gigiyena qaydalarına əməl edilmədiyində və yaxşı təmizlənməmiş qida məhsullarının tükədildiyi zaman yoluxa bilir.

Qeyd edim ki, bu xəstəliyə qarşı hansısa xüsusi bir müalicə yoxdur. Sadəcə, xəstə dəstəkləyici müalicə ilə sağalır. Bu xəstəlik xroniki formaya keçmir. Yəni hepatitə yoluxan bir adam təcili şəraitdə xəstəxanaya yatırılaraq müalicə edilir və tam sağalır. Sadəcə, fulminan dediyimiz ildırım sürətli hepatitə də yoluxma ola bilər ki, insanda hətta qaraciyər transplantasiyasına qədər yol aça bilər".

Vasif Əliyev qeyd edib ki, Hepatit A virusundan qorunmağın ən doğru yolu gigiyena qaydalarına əməl olunmasıdır: "Hepatitdən natəmiz yerlərdən uzaq durmaq, eyni zamanda kirli sulardan və ya çirkli meyvə-tərəvəz və digər qida məhsullarından istifadə etməməklə qorunmaq olar. Həmçinin hepatitə qarşı peyvənd vurduraraq da profilaktik olaraq bu xəstəlikdən qorunmaq mümkündür".

Həkim-infeksionist qeyd edib ki, Əmircan və Bülbülə qəsəbələrində epidemioloji vəziyyət nəzarətə götürülməli, bu virusa yoluxanların ortaq ünvanı araşdırılmalıdır: "Çox güman ki, həmin şəxslər qonşudur və yaxud bir yerdə çalışır. Onların ortaq qida və yaxud sudan istifadə edib-etmədikləri araşdırılmalıdır. İlk növbədə mənbə tapılmalıdır".

Məlum olduğu kimi, Bakının kəndlərində ən ciddi problem sudur. Hepatit A virusunun da sudan yarandığı deyilir. Əmircan və Bülbülə qəsəbələrinin sakinlərinin əksəriyyəti quyudan istifadə etmək məcburiyyətində qalır. Bəs bu qəsəbələrin nə qədər hissəsinə içməli su quyudan, nə qədəri isə mərkəzi mənbədən verilir?

"Azərsu" ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Anar Cəbrayıllı "Yeni Müsavat"a açıqlamasında bununla bağlı konkret statistikanın olmadığını, lakin Hepatit A virusunun yayıldığı ilk gündən adıçəkilən qəsəbələrdə tədbirlər görüldüyünü deyib: "Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi və "Azərsu" ASC-nin əməkdaşları tərəfindən şəbəkədə, fərdi yaşayış evlərində yerləşən su çənlərindən nümunələr götürülüb, onların monitorinqi və təhlili aparılıb, tərkibi öyrənilib. Heç bir halda standartlardan kənarlaşma halları aşkar olunmayıb. Qeyd etmək istərdim ki, Hepatit A virusunun yayılmasının su ilə heç bir əlaqəsi yoxdur. Həmin ərazidə yaşayan vətəndaşların iddia etdiyi kimi, suyun çirklənməsi, kanalizasiya suyunun içməli suya qarışması halları baş verməyib. Onu da qeyd edim ki, həmin əraziləri içməli su ilə qidalandıran 54 Ramana su anbarı eyni zamanda Suraxanının digər və Sabunçunun böyük bir hissəsini içməli su ilə təmin edir. Həmçinin Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə profilaktik tədbirlər davam etdirilir".

Xatırladaq ki, ötən ilin noyabr ayında Mingəçevir və Yevlaxda uşaqlar arasında sarılıq xəstəliyi yayılmışdı.

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

Doğuma görə məzuniyyət artırılacaq?

Milli Məclisdə hamiləlik və doğuşdan sonrakı sosial məzuniyyətin artırılması təklif olunur. Bu təkliflə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edib.

O bildirib ki, məzuniyyət günlərinin artırılıb 140 günə çatdırılması daha məqsədəuyğun olar. "126 gün mövcud qanunvericilikdə nəzərdə tutulub. Bu rəqəmin artırılıb 140 günə çatdırılmasını təklif edirik. Həmçinin kənd bölgələrində, digər ağır işlərdə işləyən, patoloji doğuşa, iki və üç uşaq dünyaya gətirmiş qadınların əmək məzuniyyətinin artırılmasına da baxa bilərik. Bunun üzərində işlər aparılır", - komitə sədri qeyd edib.

Qeyd edək ki, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Onkoloji xəstələrlə bağlı təklif

Orqan transplantasiyası əməliyyatlarının, sümük iliyi transplantasiyası əməliyyatlarının icbari tibbi sığorta çərçivəsində qarşılanması bizi sevindirir. Bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitə sədri Əhliman Əmiraslanov deyib.

Komitə sədri bildirib ki, bu sahədə hələ problemlər qalmaqdadır: "İcbari tibbi sığortadan məmnunluq artsa da, bu xidmət ölkədə olan bütün xəstəlikləri qarşılaya bilmir. Bu da haqlı narazılığa səbəb olur. Səhiyyə komitəsi olaraq hesab edirik ki, icbari tibbi sığorta bir sıra xidmətləri çıxmaqla (estetik əməliyyatlar, stomatoloq işləri və s.) bütün müayinə və müalicəni özü əhatə etməlidir. Onkoloji xəstəliklərin hələ də icbari tibbi sığorta ilə əhatə olunmaması böyük problemdir. Bununla bağlı iş gedir. Əmin olmaq istəyirəm ki, bu yaxınlarda bu məsələ öz həllini tapacaq.

"Yoluxanların yüz faizi vaksinasiya olmayanlardır"

Vaksinasiya prosesi ilə bağlı insanlar arasında yanlış məlumatlar yayılır. Belə fikirlər var ki, vaksinlər sağlamlığa ziyan vurur. Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

"Hətta həkimlər arasında bu fikirdə olanlar var. Biz istəmiriksə ki övladlarımız yoluxucu xəstəliklərə yoluxsun, mütləq vaksin vurdurmalıdırlar. Bu gün xəstəliyə yoluxanların deyə bilərəm ki, yüz faizi vaksinasiya olmayan insanlardır. Ona görə əhali vaksinlərlə bağlı fikirlərini dəyişməlidir", - deyə o bildirib.

Seçkidə hansı yeni texnologiyalar tətbiq edilir?

Osman Gündüz: "Texnologiya modernləşdikcə, seçkidə rəqəmsal texnologiyadan istifadənin sərhədləri də genişlənir"

"Rəqəmsal texnologiyaların tətbiq olunması seçki prosesində çeviklik və effektivliyin artırılmasına xidmət edir. Azərbaycanda da bu istiqamətdə mühüm addımlar atılıb. Beynəlxalq təcrübədə özünü təsdiqləmiş son rəqəmsal yeniliklər 7 fevral seçkilərinin bütün mərhələləri üzrə tətbiq edilib". Bunu secki-2024.az saytına açıqlamasında Azərbaycan İnternet Forumunun (AİF) prezidenti Osman Gündüz deyib.



AİF prezidenti bildirib ki, seçici siyahılarının elektronlaşdırılması, məntəqələrdə veb-kameraların quraşdırılması və bu kimi digər tədbirlər ölkəmizdə keçirilən seçki prosesində müasir texnologiyalardan istifadənin real təsdiqidir: "Seçki prosesinin rəqəmsal transformasiyası ilə bağlı addımlar davam etdirilir. Seçici siyahılarının, həmçinin seçki dairələri və məntəqələri ilə bağlı informasiyaların internet üzərindən əlçatan olması, gözdən əlil və hərəkət məhdudiyyəti olan insanlara səsvermə prosesində rahat, gizli səsverməsi üçün şəraitin yaradılması, vebkameraların quraşdırılması, barmaqların rənglənərək yoxlanması və bu kimi məsələlər təqdirəlayiqdir".

Osman Gündüz bildirib ki, texnologiya modernləşdikcə, seçki prosesində rəqəmsal texnologiyadan istifadənin sərhədləri də genişlənir. "Məsələn, vətəndaşların elektron şəkildə identifikasiyası üzrə məsələ aktuallıq daşımağa başlayıb. Hətta pilot qaydada elektron səsvermədən istifadə məsələləri test edilir. Fikrimcə, bu yeniliklər təcrübədə təsdiqləndikcə, Azərbaycanda da tətbiqi reallaşacaq", - deyə AİF prezidenti əlavə edib.

Bu arada Seçki Məcəlləsinə dəyişiklik edilir. Dəyişikliklə məcəllədəki "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz olunur.

Dəyişiklik layihəsi Azərbaycan Prezidentinin 2023-cü il 8 aprel tarixli 2089 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanıb. Belə ki, həmin bənddə qanunların və Azərbaycan Prezidentinin aktlarının "Media haqqında" Qanuna uyğunlaşdırılması tapşırılıb.

Beləliklə, dəyişikliklər təklif olunan qanunların "Media haqqında" Qanuna uyğunlaşdırılmasının təmin edilməsini nəzərdə tutur.

Beynəlxalq müşahidəçilər isə seçki ilə əlaqədar prosesləri izləməyə davam edirlər. Onlar Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən seçki dairələrində olub, ayrı-ayrı məntəqələrdə seçkilərə hazırlığın gedişi ilə maraqlanıblar.

"Report"un yerli bürosunun xəbərinə görə, ATƏT-in Demokratik Qurumlar və İnsan Haqları üzrə Təşkilatının Naxçıvandakı uzunmüddətli müşahidəçisi Kristoper Barber jurnalistlərə müsahibəsində bildirib ki, muxtar respublikaya növbədənkənar Prezident seçkilərini müşahidə etmək üçün gəlib: "Mənimlə birlikdə İsveçrədən olan həmkarım Martin Mayinedir burada dır. Biz fevralın 15-dək burada olacağıq. Seçki və seçkidən sonrakı müddəti müşahidə edəcəyik. Qeyd edim ki, bizə seçki ərəfəsində qısamüddətli müşahidəçilər də qoşulacaq.

Əsas məqsədimiz şəxsən nəyi müşahidə ediriksə, onları dəyərləndirməkdən ibarətdir. Qərarlarımız tamamilə obyektiv və qərəzsiz olacaq. Əsas komanda olaraq Bakıdan gəlmişik və hazırda gedən proseslər barədə ayın sonunadək hesabat verəcəyik.

Müxtəlif yerlərə baş çəkib müşahidələr aparırıq. Bura siyasi partiyalar, qeyri-hökumət təşkilatları, seçicilər, dairələr və məntəqələr daxildir. İndiyədək hazırlıq prosesini müşahidə eləmişik. Hazırda məntəqələrdə hazırlıq işləri aparılır və lazımi avadanlıqlarla təmin edilir".

Rusiya Federasiyasının Dövlət Duması da Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkisini müşahidə etmək üçün nümayəndə heyəti göndərəcək. APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə jurnalistlərə Dumanın MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin rəhbəri Leonid Kalaşnikov məlumat verib. Onun sözlərinə görə, Azərbaycandakı seçkiyə müşahidəçi qismində gedəcək Dövlət Dumasının nümayəndə heyəti fraksiyalararası olacaq. "Bütün fraksiyalar orada təmsil olunacaq. Üç parlamentari Vahid Rusiya fraksiyasından, digər fraksiyaların hərəsindən bir nəfər olacaq", - deyə Kalaşnikov əlavə edib.

MDB Parlamentlərarası Assambleyasının müşahidəçiləri fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkisində Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunda baş tutacaq səsvermə prosesini izləyəcəklər. Bunu MDB PA-nın sədr müavini, Demokratiyanın İnkişafının Monitorinqi Mərkəzinin rəhbəri İvan Muşketin Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunu ziyarəti zamanı deyib. Bildirilib ki, görüşdə Baş Konsulluqda fəaliyyət göstərəcək seçki məntəqəsindəki səsverməni MDB PA müşahidəçilərinin monitorinq etməsi barədə razılıq əldə olunub.

Vurğulanıb ki, Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunda 1030 seçici qeydiyyatdadır.

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"

Azərbaycanda oxuyan əcnəbilər, xaricdə təhsil alan azərbaycanlılar - statistika

Hazırda ölkəmizin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə yanaşı, 93 xarici ölkədən 7,7 min əcnəbi tələbə də təhsil alır.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Rusiya, Gürcüstan, Hindistan, Pakistan İslam Respublikası, Suriya Ərəb Respublıkası, İraq və Nigeriya vətəndaşları üstünlük təşkil edirlər.

2023-2024-cü tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin sayı 997 nəfər təşkil edib.

Xaricdə təhsil alan gənclərin 33,1 faizi Bakı, 66,9 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır.

Azərbaycanlı tələbələrin əksəriyyəti Türkiyə, Macarıstan, Rusiya və Çin Xalq Respublikasının ali təhsil müəssisələrində təhsil alır.

Tələbələrin neçə faizi təqaüd alır?

2023-2024-cü tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 59 orta ixtisas təhsili müəssisəsində 65,6 min tələbə (2022/2023-cü tədris ili ilə müqayisədə 1,5 faiz artım) təhsil alıb. Onların 62,5 faizini qızlar təşkil edir.

Bu barədə Dövlət Statistika Komitəsindən verildiyi məlumatda bildirilib.

Hazırda Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən dövlət və qeyri-dövlət ali təhsil müəssisəsində, eləcə də elmi təşkilatda və tibb müəssisələrində təhsil alanların sayı 231,4 min nəfərdir.

Onların da 51,1 faizini qızlar təşkil edir. Əvvəlki tədris ili ilə müqayisədə tələbələrin sayı 8,6 min nəfər və ya 3,9 faiz artıb.

Rəsmi statistikaya görə, ölkənin ali təhsil müəssisələrinə tələbə qəbulunun artması müşahidə olunur. Belə ki, ali təhsilin bakalavr səviyyəsinə qəbul olunan tələbələrin sayı 2022-ci illə müqayisədə 4,7 faiz artaraq 52,9 min nəfər olub. Qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilib.

Bakalavriata qəbul olunan tələbələrin ümumi sayında ödənişli əsaslarla təhsilə qəbul olunanların xüsusi çəkisi 49,8 faiz olub ki, onların da 76,6 faizi dövlət ali təhsil müəssisələrinin payına düşür. Hazırda dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin 55,3 faizi təqaüd alır.

Azərbaycana ən çox hansı ölkələrdən turist gəlir?

Ölkəmizə gələn əcnəbilərin 71,4 faizi hava, 27,3 faizi dəmir yolu və avtomobil, 1,3 faizi isə dəniz nəqliyyatından istifadə edib

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2023-cü ildə Azərbaycan Respublikasına dünyanın 187 ölkəsindən 2085,8 min və ya əvvəlki illə müqayisədə 30,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Bu barədə Dövlət Statistika Komitəsindən xəbər verilib.

Gələnlərin 30,0 faizi Rusiya Federasiyası, 18,1 faizi Türkiyə, 7,9 faizi İran, 5,6 faizi Hindistan, 5,0 faizi Gürcüstan, 3,9 faizi Səudiyyə Ərəbistanı, 2,8 faizi Qazaxıstan, 2,6 faizi Pakistan, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Özbəkistan, 1,5 faizi Ukrayna, hər birindən 1,4 faiz olmaqla Küveyt və İsrail, 1,3 faizi Belarus, 1,2 faizi Türkmənistan, 1,1 faizi Çin, 1,0 faizi Böyük Britaniya, 11,1 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 70,3 faizini kişilər, 29,7 faizini qadınlar təşkil edib.

2022-ci illə müqayisədə Çindən gələnlərin sayı 6,5 dəfə, Cənubi Koreyadan - 3,3 dəfə, Türkmənistandan - 2,3 dəfə, Hindistandan - 1,9 dəfə, Qazaxıstandan - 1,9 dəfə, Misirdən - 1,9 dəfə, Tacikistandan - 1,8 dəfə, Polşadan - 1,8 dəfə, Qırğızıstandan - 1,8 dəfə, Bəhreyndən - 1,7 dəfə, Filippindən - 1,7 dəfə, İtaliyadan - 1,6 dəfə, İspaniyadan - 1,6 dəfə, Özbəkistandan - 1,5 dəfə, Belarusdan - 48,8 faiz, Moldovadan - 48,2 faiz, Kanadadan - 40,0 faiz, Rusiya Federasiyasından - 39,9 faiz, ABŞ-dan - 37,9 faiz, Küveytdən - 31,3 faiz, Fransadan - 29,8 faiz, Gürcüstandan - 27,1 faiz, Niderlanddan - 26,0 faiz, Böyük Britaniyadan - 23,4 faiz, İsraildən - 21,6 faiz, Türkiyədən - 21,2 faiz, Almaniyadan - 18,3 faiz, Ukraynadan - 12,7 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 11,4 faiz, Pakistandan - 6,7 faiz, İordaniyadan - 6,0 faiz artıb.n nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 41,6 faiz artaraq 104,8 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 2,1 faiz azalaraq 350,2 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 71,4 faizi hava, 27,3 faizi dəmir yolu və avtomobil, 1,3 faizi isə dəniz nəqliyyatından istifadə edib.

2022-ci illə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 25,5 faiz artaraq 1868,7 min nəfər olub. Rusiya Federasiyasına gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 1,5 dəfə, Gürcüstana gedənlərin sayı 31,8 faiz, Türkiyəyə gedənlərin sayı 24,3 faiz artmış, İrana gedənlərin sayı 27,7 faiz azalıb. Ölkə vətəndaşlarının 43,6 faizi Türkiyəyə, 21,5 faizi Rusiya Federasiyasına, 9,0 faizi Gürcüstana, 7,6 faizi İrana, 18,3 faizi digər ölkələrə səfər edib. Gedənlərin 64,9 faizini kişilər, 35,1 faizini qadınlar təşkil edib

2023-cü ildə xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 67,5 faizi hava, 30,0 faizi dəmir yolu və avtomobil, 2,5 faizi isə dəniz nəqliyyatından istifadə edib.

"İşıqlar söndü, sonra partlayış baş verdi"

Sumqayıt şəhəri, 22-ci məhəllədə yerləşən Sumqayıt Dövlət Texniki Kollecinin korpusunda baş verən yanğının təfərrüatları bəlli olub. .

Məlumata görə, yanğın nəticəsində hər mərtəbəsi 512m2 olmaqla ümumi sahəsi 1024m2 olan ikimərtəbəli binanın 2-ci mərtəbəsində 6 otağın yanar konstruksiyaları 200m2 sahədə və dam örtüyünün yanar konstruksiyaları yanıb.

Binanın böyük hissəsi, bitişik olan korpusu və yaxınlıqdakı evlər yanğından mühafizə olunub. Təhlükəsizlik tədbirləri çərçivəsində 8 nəfər sakinin təxliyəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") Regional idarəetmə və status şöbəsinin müdiri Sənan Hüseynovun sözlərinə görə, ikimərtəbəli inzibati binada 11 ailə məskunlaşıb. Onlardan yeddi ailə Qubadlı rayonundan, iki ailə Cəbrayıl rayonundan, iki ailə isə Laçın rayonundan məcburi köçkünlərdir. Komitə tərəfindən əraziyə baxış keçirilib, hələlik sakinlər qohumlarının evinə yerləşdirilib, hadisə ilə bağlı araşdırma aparılacaq.

Elm və Təhsil Nazirliyindən bildirilib ki, Sumqayıt Dövlət Universitetinin rektoru, kollecin rəhbərliyi hadisə yerinə gəlib. Qeyd edək ki, binanın yanğın baş verən hissəsində tələbələr yaşamır. Yataqxana tipli bu bina qazlaşmayıb.

Yanğın zamanı bir neçə nəfər tüstüdən zəhərlənib. 1954-cü il təvəllüdlü şəxs (kişi cinsli) "Digər qazların toksiki təsiri" diaqnozu ilə orta ağır vəziyyətdə hospitalizasiya olunub. 1981-ci il təvəllüdlü (kişi cinsli) və 1961 -ci il təvəllüdlü (qadın cinsli) şəxslərə "Digər qazların toksiki təsiri" diaqnozu ilə yerində yardım olunub. Durumları kafidir. İki qadına isə "Stresə qarşı kəskin reaksiya" diaqnozu ilə yerində yardım olunub.

Sakin və hadisənin şahidi Sakit Hüseynov bildirib ki, dünən axşam saat 22 radələrində binada işıqlar sönüb. Bir neçə dəqiqə sonra partlayış səsi eşidilib. Bundan sonra yanğın başlayıb. S.Hüseynov bununla bağlı müvafiq qurumlara məlum verib. Məlumatla əlaqədar dərhal əraziyə FHN Dövlət Yanğından Mühafizə Xidməti və Sumqayıt Regional Mərkəzinin qüvvələri, polis əməkdaşları əraziyə cəlb edilib.

Səlim Müslümovun nəyi vardı, indi nəyi qaldı - borcunu qaytara bilməməsinin səbəbi

Sabiq əmək və sosial müdafiə naziri Səlim Müslümovun cinayət işi üzrə məhkəmə araşdırması iki gün əvvəl başa çatdı. Hökmə əsasən, Səlim Müslümova 5 il sınaq müddəti təyin olunmaqla, 11 il müddətinə şərti cəza verilib.

Səlim Müslümov 2021-ci ilin fevralında Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat nəticəsində həbs olunmuşdu. Daha sonra onun səhhətində yaranan problemlərlə bağlı ev dustaqlığına buraxılıb.

İstintaq daha sonra məhkəmədə Səlim Müslümovun rüşvət olaraq 13 milyon 296 min 355 manat aldığı, 7 milyon 237 min 188 manat mənimsədiyi, 7 milyon 87 min 671 manat israf etdiyi təsdiq olunub. Səlim Müslümova Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə ittiham elan edilmişdi.

Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Səbayel Rayon Məhkəməsinin 1 iyul 2022-ci il tarixli qərarına əsasən sabiq nazirə məxsus mənzil, qeyri-yaşayış sahəsi və avtomobillərin üzərinə həbs qoyulub.

Səlim Müslümovun 8 milyonluq əmlakı müsadirə edilib.

- Binəqədi rayonu, Akademik Ziya Bünyadov prospektində yerləşən iki mənzil;

- Səbayel rayonu, Azadlıq prospektində yerləşən qeyri-yaşayış sahəsi;

- Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsində mənzil;

- Nərimanov rayonu, Oqtay Kərimov küçəsində iki ev;

- Nərimanov rayonu, Məmməd Araz küçəsində ev;

- Binəqədi rayonu, 6-cı mikrorayonda yerləşən 500 və 300 kv.m torpaq sahələri;

- Bakı şəhəri, Xətai rayonu, Rəsul Rza küçəsində yerləşən 300 kv.m olan qeyri-yaşayış sahəsi.

Səlim Müslümovun məhkəmə prosesi ən müxtəlif bəhanələrlə 1 ildən artıq uzadıldı. Bu müddət ərzində o, nazir olduğu dövrdə sahibləndiyi və istintaqla müəyyən edilmiş məbləğin 20 milyon manatı geri qaytardı. Məhkəmənin gedişatında isə onunla işbirliyində olmuş şirkətlərin əvəzindən də pul ödədi. Şirkətlərin əvəzindən 4 milyon 500 min manatı ödəməklə cinayətləri mütəşəkkil qaydada törədilməsini faktiki etiraf etmiş oldu.

Səlim Müslümovun xüsusi müsadirəyə götürülmüş əmlaklarının ən minimal qiymətləndirməyə əsasən dəyəri 8 milyon manatı aşır. Bu əmlakların satışı üzrə hərrac şəffaf keçirilərsə, bu məbləğin azı 3 dəfə artma ehtimalı böyükdür. Yəni xüsusi müsadirəyə götürülmüş Səlim Müslümova məxsus əmlakların real bazar dəyəri 25 milyon manatı aşa da bilər. Səlim Müslümov istintaqın müəyyən edə bildiyi büdcə talanını artıqlaması ilə ödəmək imkanına malikdir.

Bu qədər əmlakı haradan əldə etməsi sualı cavabsız olsa da, faktiki cavab ortadadır. Hökm elan edilən andan ictimaiyyət Səlim Müslümova verilmiş cəzanın onun əməllərinə mütənasibliyinə böyük şübhə ilə yanaşırlar. Dövlət büdcəsindən əhalinin aztəminatlı təbəqəsinə ayrılan milyonlarla vəsaiti, ümumilikdə 27 milyon manatı ələ keçirmiş bir məmura Azərbaycan məhkəməsinin loyallığı ciddi etiraz doğurub.

Tanınmış vəkil Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, son zamanlar Azərbaycan məhkəmələrində iqtisadi cinayətlər üzrə ziyanı ödəyən şəxslərin barəsində həbslə əlaqəli olmayan cəzaların seçilməsi praktikası yaranıb: "Bəzi hallarda məsuliyyətdən belə azad edirlər. Əlbəttə ki, bu, korrupsiya cinayətlərinə aid deyil. Daha çox dələduzluq cinayətlərində belə yanaşma var. Bu iş isə korrupsiya cinayətidir və hər hansı bir qiymətverici mülahizə yeritmək üçün Azərbaycan məhkəmələrindəki digər işlərə baxılmalıdır. Məsələn, adi vətəndaş oğurluq edər və oğurladığını tam şəkildə qaytaranda, vurduğu ziyanı ödədikdən sonra azadlıqdan məhrum etmədən azad olunurmu? Hər gün məhkəmələrdə olan şəxs kimi deyirəm - xeyr, azad etmirlər!" Bəs xalqın dövlətə inamını sarsıdan məmura qarşı loyallığın sirri nədir?

Əkrəm Həsənov deyir ki, bu cür yanaşma digər korrupsioner məmurlar üçün "yaşıl işıq" yandırılmasına bərabərdir: "Bu gün vəzifədə olan korrupsioner məmurlar hökmlə tanış olub düşünəcəklər ki, hə də, ona nə oldu ki? Uzaq başı dövlətdən oğurladığım pulu qaytarıram, qalıram azadlıqda. Özü də hansı pulu qaytarıram? Sübut olunan pulu! Çünki korrupsiya yolu ilə büdcə pullarının ələ keçirilməsini sübut etmək asan iş deyil. Bu nöqteyi-nəzərdən çıxarılan hökm arzuolunan deyil".

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

Naxçıvana yeni yol çəkilir

Hazırda ərazidə körpünün dayaq svaylarının vurulması və svay başlıqlarının qurulması işləri davam etdirilir

Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısı və Araz çayı üzərində körpünün tikintisi işləri icra olunur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) verilən məlumat görə, Azərbaycan Respublikası Prezidentinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ərazidə tikinti işləri davam etdirilir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantı yolu və Araz çayı üzərində körpü layihəsi Horadiz - Cəbrayıl - Zəngilan - Ağbənd avtomobil yolunun 111.8 km-dən ayrılır.

Qeyd olunan layihə üzrə inşa edilən 7.2 kilometrlik 1 dərəcəli bağlantı avtomobil yolunda süni qurğuların (istinad divarları, müxtəlif diametrli borular, düzbucaqlı borular, keçidlər və beton küvetlər) və torpaq yatağının tikintisi davam etdirilir. Görülmüş işlərin fiziki tərəqqisi 80% təşkil edir.

Layihə çərçivəsində Araz çayı üzərində uzunluğu 374 və eni isə 27.6 metr təşkil edəcək avtomobil körpüsünün inşasına da start verilib. 4 hərəkət, 2 təhlükəsizlik və ayrıcı zolaqlardan ibarət olmaqla hər bir istiqamətdə üzrə körpü üzərində 2.8 metr enində piyada səkilərinin inşası da nəzərdə tutulub.

Hazırda ərazidə körpünün dayaq svaylarının vurulması və svay başlıqlarının qurulması işləri davam etdirilir. Bu işlər üzrə tərəqqi 10% təşkil edir.

"İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində inşa edilən avtomobil körpüsü iki ölkə ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcək. Tikiləcək, avtomobil körpüsünün gündəlik buraxılış qabiliyyəti 1100 ədəd yük-nəqliyyat vasitələrinin təşkil edəcəkdir.

Elan:

Məmmədov Sərxan Bərxudar oğluna məxsus 77 PV 212 avtomobil qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.

YENİ MÜSAVAT
N 10 (8383) 19 yanvar 2024

Məlumdur ki, birbaşa xarici dövlət borcunun həcminə görə Azərbaycan bir çox ölkələrdən yaxşı vəziyyətdədir. Belə ki, 2023-cü il oktyabrın 1-nə ümumi dövlət dövlət borcu 17 milyard 203,3 milyon manat, yəni ümumi daxili məhsulun cəmi 14,4 faizini təşkil edib. Borcun 11 milyard 109,5 milyon manatı və yaxud 6 milyard 535 milyon ABŞ dolları xarici, 6 milyard 093,8 milyon manatı isə daxili dövlət borcudur. Bunlar isə 2023-cü il üzrə ÜDM-in müvafiq olaraq 9,3 faizi və 5,1 faizi qədərdir.

Dövlət zəmanəti ilə alınmış borclar - pulu kim ödəyəcək?

Böyük qurumların fəaliyyətində şəffaflıq və hesabatlılıq təmin olunmadan belə borclanmalar dövlət üçün ağır maliyyə yükünə çevrilə bilər

Yuxarıda qeyd olunan xarici borc bilavasitə dövlətin borcunun həcmini göstərir. Bu göstərici azalsa da, iri hüquqi şəxslərin, bir sıra qurumların dövlət zəmanəti ilə aldığı borcların həcmi artmaqdadır. Dövlət zəmanəti ilə alınmış borcların həcmi 21 milyard 309,2 milyon manatdır, yəni rəsmi dövlət borcundan daha çoxdur. Bunu da dövlət borcunun üstünə gələndə 38 milyard manatdan yüksək bir məbləğ alınır. Burada narahatedici məqam iri dövlət şirkətlərinin zəmanətlə aldıqları borcun qaytarılması ilə bağlıdır. Çünki uzun illər boyudur əksər iri dövlət şirkətlərinin aldıqları yüz milyonlarla dollar kreditlərin ödənişi dövlət büdcəsi üçün ağır yükə çevrilib.

Qeyd edək ki, Hesablama Palatasının 2022-ci il dövlət büdcəsinin icrasına dair rəyinə görə, 2023-cü ilin 1 yanvar tarixinə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin faktiki xarici borcu 1 milyard 237,7 milyon dollar, bağlanmış müqavilələr üzrə borcu 2 milyard 653,9 milyon dollar, Azərbaycan Dəmir Yolları QSC-nin faktiki xarici borcu 721,9 milyon dollar, bağlanmış müqavilələr üzrə borcu 1 milyard 16,5 milyon dollar, Azərsu ASC-nin faktiki xarici borcu 767,7 milyon dollar, bağlanmış müqavilələr üzrə borcu 1 milyard 184,2 milyon dollar, Meliorasiya və Su Təsərrüfatı ASC-nin faktiki xarici borcu 245 milyon dollar, bağlanmış müqavilələr üzrə borcu 514,5 milyon dollar təşkil edir.

2022-ci ildə Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan bir sıra dövlət müəssisələrinin dövlət zəmanəti əsasında cəlb etdikləri kreditlərə vaxtında xidmət göstərə bilməməsi səbəbindən ümumilikdə 119,1 milyon manat vəsait yönəldilib. Belə ki, "Azərbaycan Hava Yolları" QSC-nin 18,4 milyon manat, "Aqrarkredit" QSC-nin 100,0 milyon manat, Sahibkarlığın İnkişafı Fondunun 0,7 milyon manat məbləğindəki öhdəlikləri Təminat Fondunun vəsaiti hesabına icra olunub. Palatanın hesablamalarına əsasən ümumilikdə bir sıra dövlət müəssisələrinin dövlət zəmanəti əsasında cəlb etdikləri kreditlərə görə birbaşa borcalanın əvəzinə 2021-ci ildə 493,6 milyon manat Təminat Fondundan, büdcə vəsaiti hesabına isə 249,4 milyon manat olmaqla 743,0 milyon manat, 2022-ci ildə isə 119,1 milyon manat Təminat Fondundan, 339,4 milyon manat büdcə vəsaiti hesabına olmaqla 458,5 milyon manat vəsait ödənilib: "Həmin müəssisələrin eyni zamanda Təminat Fondu qarşısında da öhdəliklərinin olması nəzərə aldıqda təkrar borc müqavilələri üzrə müəssisələrin Təminat Fonduna ödəməli olduğu vəsaiti gələcək dövrlərdə də tam icra edə bilməməsi ehtimalını yaradıv.

Dövlət zəmanəti verilmiş öhdəliklərin vaxtında və tam şəkildə təmin edilməsi, habelə ölkənin kredit reytinqinə xələl gətirilməməsi məqsədilə Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunda saxlanılan vəsaitin həcminin tədricən artırılması hədəflənir ki, bunun da hazırkı şəraitdə dövlət büdcəsinin vəsaiti hesabına reallaşdırılacağının mümkünlüyünü bildiririk".

Onu da bildirək ki, bu və qarşıdakı illərdə Azərbaycanın xarici maliyyə qurumlarından borclanmasında artım olacağı nəzərdə tutulur. 2023-cü ilin avqustunda buna görə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na ölkənin dövlət borcu ilə bağlı hədəf və çərçivələri üzrə dəyişiklik olunub. Əvvəlki hədəf göstəricisinə əsasən, 2023-cü il iyulun 1-nə 6,6 milyard ABŞ dolları və yaxud ÜDM-in 10 faizi qədər olan xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi müəyyən edilmişdi. Bununla yanaşı, Azərbaycanda xarici dövlət borcunun 2025-ci ilin sonunda 7,1 milyard ABŞ dolları və yaxud ÜDM-in 10,7 faizi qədər olması gözlənilirdi. **Maliyyə Nazirliyinin verdiyi izahata əsasən, hökumətə ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə müvafiq prioritet sahələrdə infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün əlavə xarici borc vəsaitlərinin cəlb olunması imkanlarının nəzərdən keçirilməsi tapşırığı verilib:**

"Bu səpkidə alternativ enerjinin toplanması və nəqli ilə əlaqədar müasir enerji şəbəkəsinin qurulması, özünüməşğulluq və sosial müdafiə tədbirlərinin gücləndirilməsi, smart şəhərlərin qurulması, ölkəmizin tranzit potensialının artırılması, o cümlədən dəmir yolu infrastrukturunun yenidən qurulması və Cənub Qaz Dəhlizinə daxil olan qaz boru kəmərlərinin nəqletmə həcminin yüksəldilməsi, "Bakı Gəmiqayırma Zavodu" MMC-nin fəaliyyətinin genişləndirilməsi, su təchizatı və kanalizasiya şəbəkələrinin yenidən qurulması tədbirlərinin davam etdirilməsi kimi layihələr üçün maliyyə təminatının yaradılması çərçivəsində ortamüddətli dövrdə xarici borcalmalara müraciət etmək nəzərdə tutulur.

Yeni borclanmaların dövlət borcunun idarə edilməsi üzrə müəyyən olunmuş hədəflərdə öz əksini tapması üçün "Dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi"nə və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na müvafiq dəyişikliklər edilib. Həmin dəyişikliklərə əsasən, dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddi 30 faizi, birbaşa xarici dövlət borcu mütləq ifadədə 10 milyard ABŞ dollarını üstələməməlidir. Əlavə borclanma həm də ölkəmizin əməkdaşlıq etdiyimiz beynəlxalq maliyyə kredit qurumları ilə işgüzar münasibətlərinin davam etdirilməsi siyasəti baxımından da mühüm əhəmiyyət kəsb edir".

Məlumat üçün bildirək ki, 2024-cü il üçün Azərbaycanın daxili borclanmasının yuxarı həddi 2 milyard 300,0 milyon manat, xarici borclanmanın yuxarı həddi 1 milyard 700 milyon manat, dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi isə 700,0 milyon manat məbləğində müəyyən edilib. Növbəti ildə limitin xarici borclanma üzrə cari ilə nisbətən 126,7 faiz, daxili borclanma üzrə 27,8 faiz artırılması, dövlət zəmanəti üzrə isə 30,0 faiz azaldılması nəzərdə tutulub.

Hesablama Palatasına görə, 2024-cü ildə xarici borc limiti üzrə proqnozlaşdırılan vəsaitin həyata keçirilməsi reallaşarsa, bu, növbəti illərdə faiz dərəcələrinin dəyişməsi ilə xarici dövlət borcuna xidmət xərclərinin, xüsusilə də faiz xərcləri üzrə ödənişlərin daha da artması ilə nəticələnə bilər: "Belə ki, son dövrlərdə xarici maliyyə institutlarının sabit faiz dərəcəsi ilə kredit təkliflərini azaltmaları, yeni cəlb edilən kreditlərin dəyişkən faiz dərəcəsi ilə əldə edilməsinə şərait yaradır ki, bu da öz növbəsində xarici borcun strukturunda dəyişkən faiz dərəcəsi ilə cəlb edilmiş kreditlərin payının artmasına səbəb olur. Bu növ kreditlərin həcminin artması, həmçinin son dövrlərdə dünyanın ən böyük mərkəzi banklarının xüsusilə də ABŞ Federal Ehtiyatlar Sistemi və Avropa Mərkəzi Bankının həyata keçirdikləri sərt monetar siyasətlər nəticəsində istinad faiz dərəcələrinin artırılması, bu artım tendensiyasının ortamüddətli dövrdə də davam edəcəyi ehtimalının olması növbəti illərdə dövlət büdcəsi xərclərinin, o cümlədən dövlət borcuna xidmət xərclərinin artması riskini aktuallaşdırır".

2024-cü il üçün dövlət büdcəsinin tərkibində xarici dövlət borcu üzrə ödənişlər 1 milyard 472,6 milyon manat məbləğində proqnozlaşdırılıb.

Bu il Azərbaycan birbaşa xarici dövlət borcu üzrə 2 milyard 363,0 milyon manat (1 milyard 390,0 milyon ABŞ dolları) vəsait qaytarmalıdır. Bura 2024-cü ildə vaxtı çatan beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş xarici valyuta nominallı dövlət qiymətli kağızları (avrobondlar) üzrə 1 milyard 530 milyon manat (900,0 milyon. ABŞ dolları), əsas borc ödənişlərinin xarici investorlara geri ödənilməsi də daxildir. Qeyd edək ki, bu öhdəliklərin 850,0 milyon manat (500,0 milyon ABŞ dolları) məbləğində hissəsinin dövlət büdcəsi xərclərindən, qalan 680 mlyon manat hissəsi və eyni zamanda il üzrə xarici kreditlərin əsas borc ödənişləri üzrə ödənilməli olan 833,0 milyon manat (cəmi 1513,0 milyon manat, 890 milyon ABŞ dolları) məbləğində öhdəliyin daxili maliyyə bazarlarında dövlət istiqrazlarının yerləşdirilməsindən cəlb olunacaq vəsait hesabına ödənilməsi nəzərdə tutulur.

Artıq hökumət Dünya Bankı ilə kredit alınması üzrə danışıqlara başlayıb. Energetika Nazirliyindən verilən məlumata görə, bugünlərdə energetika naziri Pərviz Şahbazovla Dünya Bankının təcrübə meneceri Stefani Gilin rəhbərlik etdiyi enerji məsələləri üzrə nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə Azərbaycanla Dünya Bankı arasında enerji sektorunda tərəfdaşlığın inkişafı ilə bağlı məsələlər müzakirə edilib. Həmçinin 2027-ci ilədək 2 QVt-dək bərpa olunan enerji güclərinin enerji sisteminə inteqrasiyası məqsədilə şəbəkənin gücləndirilməsi, həmçinin növbəti mərhələdə dənizdə külək enerjisindən istifadə ilə bağlı dəstəyin göstərilməsi üzrə Dünya Bankı ilə əməkdaşlığın cari vəziyyəti və növbəti addımlar nəzərdən keçirilib. Energetika naziri Pərviz Şahbazov şəbəkənin gücləndirilməsi prosesinin sürətləndirilməsinin vacibliyini vurğulayaraq Dünya Bankının bu istiqamətdə dəstəyinin əhəmiyyətini qeyd edib.

Göründüyü kimi, artıq irihəcmli kreditlərin alınması prosesinə start verilib. Böyük dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlılıq təmin olunmadan belə borclanmaların dövlət üçün ağır maliyyə yükünə çevrilməsi qaçılmazdır...

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 10 (8383) 19 yanvar 2024



Mütəxəssis hansı idmandan əvvəl nə yemək lazım olduğunu açıqladı

Qaçışdan əvvəl karbohidratlı, güc məşqlərindən əvvəl proteinli qidalar məsləhətdir, yüksək intensivlikli məşqdən əvvəl isə, ümumiyyətlə, heç nə yeməmək daha yaxşıdır.

Bu barədə amerikalı diyetoloq Lesli Bonçi deyib müxtəlif növ məşqlərdən əvvəl istehlak qaydaları barədə danışarkən bildirib.

Diyetoloqun sözlərinə görə, ümumiyyətlə, dolu mədə ilə idman etmək reflüks, hıçqırıq və ürəkbulanma kimi bəzi narahatlıqlara səbəb ola bilər:

"Bununla belə, məşqdən əvvəl, ümumiyyətlə, yemək yeməmək də məsləhət görülmür - bu, məşqləri yerinə yetirmək üçün lazım olan enerji ehtiyatlarının sürətlə tükənməsinə səbəb ola bilər. Qaçış kimi kardio məşqlərindən əvvəl karbohidratlarla zəngin kiçik qəlyanaltılar yemək məsləhətdir. Bunlara müsli batonları və səhər yeməyi üçün quru taxıl sıyıqları daxildir. Məşqdən qısa müddət əvvəl banan da yemək olar".

"Yaxşı seçim, iki yumurta və bir az pendirlə kiçik bir sendviçdir".

Mütəxəssis yüksək intensivlikli intervallı məşqdən əvvəl (bu məşqə qaçış, press, tullanma və s. kimi müxtəlif məşqlər daxil ola bilər) isə heç nə yeməməyi məsləhət görür. Onun sözlərinə görə, bu, məşq zamanı ağırlıq və ürəkbulanma hisslərinin qarşısını almağa kömək edəcək.

İsrail dünyada analoqu olmayan yeni qida məhsulunu satışa çıxardı

İsrail süni mal ətinin satışını təsdiqləyən ilk ölkə olub. Müvafiq icazə qida texnologiyası şirkəti "Aleph Farms Ltd."yə verilib. Bu barədə İsrailin Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirilir ki, yeni qida toyuq hüceyrələrindən deyil, iribuynuzlu heyvanlardan alınan kultivasiya hüceyrələrindən hazırlanıb. Məhsul bioloji təhlükəsizlik, həmçinin istehlak zamanı zərərin olmaması üçün bütün lazımi testlərdən keçib.

"Bütün yoxlamalardan keçdikdən sonra məhsulun İsraildə geniş ictimaiyyətə satışına icazə verilib", - deyə materialda vurğulanıb. Qurumdan əlavə edilib ki, zülallara qlobal tələbatın artması və canlılardan olmayan məhsulların istehsalının vacibliyini nəzərə alaraq, nazirlik alternativ qida mənbələrinin inkişafı istiqamətində işlər aparır.

Valideynlərin qan qrupu uşaqların istedadına təsir edirmi?

Uşağın öyrənmə qabiliyyəti və istedadı valideyndən ötürülür, bir çox xüsusiyyətlər yaxın qohumlardan miras alınır. Məlum olub ki, insan genomunu ən yaxşı qoruyan qandır.

Bu məsələni araşdıran alimlər məlumatı qavramaq, yadda saxlamaq və çoxaltmaq qabiliyyəti ilə insanın qan qrupu arasında əlaqəni öyrəniblər.

Bunun üçün dörd qan qrupunun minlərlə daşıyıcısı tədqiq edilib və müəyyən nəticələr əldə olunub. Həmin tədqiqatı qısaca təqdim edirik.

Birinci qan qrupu

Məlum olub ki, ən istedadlı uşaqlar birinci qan qrupu olan insanlar tərəfindən dünyaya gətirilir. Əgər valideynlər lap əvvəldən uşağın hansısa yaradıcılığa və ya elmə meyilli olduğunu aşkar edərlərsə, gələcəkdə bu qabiliyyətin uşağa dünyada öz yerini tapmasına kömək edəcəyi ehtimalı yüksəkdir.

Çox vaxt birinci qan qrupu olan insanlar musiqi, ədəbiyyat və humanitar elmlərdə istedadlı uşaqlar dünyaya gətirirlər. Həmçinin bu qan qrupunun sahibləri tikintidə və biznesdə uğur qazanırlar.

İkinci qan qrupu

Alimlər müəyyən ediblər ki, ikinci qan qrupu olan insanların tənqidi düşünmə qabiliyyətinə malik olan, həmçinin yeni texnologiyaların və proqramlaşdırmanın inkişafı sahəsində uğur qazanan uşaqları böyütmək ehtimalı digərlərinə nisbətən daha çoxdur. Bununla belə, bu valideynlərin bir çoxu uşaqlarını həddindən artıq qayğı və diqqətlə "boğurlar". Belə bir zehniyyətə sahib olan uşaqların, əksinə, düşünməyə meyilli olduğunu və təkliyə üstünlük verdiyini başa düşmək lazımdır. Onların kövrək daxili dünyasını məhv etmək olmaz.

Üçüncü qan qrupu

Üçüncü qan qrupu olan insanlar çox vaxt yaradıcı və həssas uşaqlar dünyaya gətirirlər. Uşağın istedadını boğmamaq vacibdir, çünki bu uşaqlar tənqidi adekvat şəkildə necə qəbul etməyi tamamilə bilmirlər və uğursuz ifadə edilən bir sözə görə ən sevimli fəaliyyətlərindən belə imtina etməyə hazırdırlar. Uşağa qulaq asmalı və mülayimlik göstərilməlidir, əks halda, onun bütün istedadları öləcək.

Dördüncü qan qrupu

İstedadlı idmançılar daha çox IV qan qrupu olan insanlarda doğulur. Bu insanların özləri uşaqlıqdan çox vaxt fiziki inkişafla maraqlanırlar. İdman sevgisi övladlarına ötürülür, onlar çox vaxt səy göstərsələr, böyük uğurlar qazanırlar. Dördüncü qan qrupu olan insanlar adətən çempionların valideynləri olurlar.

Bunları bilirsinizmi?

* Marafon qaçışı yarışlarında zəncilərin daha çox uğur qazanmasının səbəbi ayaqlarında ağ dərililərdən fərqli olaraq 2 ədəd artıq vətərin olmasıdır.
* İnsanlar ömrü boyunca təxminən 2 milyon dəfə biri-birilərinə söz verirlər.
* İşləyən insanlar təqribən 5 ilini oturmaqla keçirirlər.
* Hər bir insan yemək bişirmək üçün 2.5 ilini, yemək üçün isə 3,5 ilini sərf edir.
* Qadınlar 17 ilini yalnız artıq çəkidən xilas olmaq üçün xərcləyirlər.
* Qadınlar 8 ilini alış-verişə, 1,5 ilini isə qadın salonunda keçirir.
* İnsan 1 ilini ev təmizliyinə sərf edir.
* İnsan ömrünün 10 ilini işləməklə keçirir. (20-65 yaş arası həftədə 40 saat işləyənlər)
* İnsan ömrünün 90 faizini qapalı mühitdə keçirir.
* İnsan ömrü boyunca 9 il televiziya seyr edir. 2 il isə sadəcə reklamları izləyir.
* Hər bir insan ildə 2 min yuxu görür.
* Hər bir insan təxminən 4,5 il avtomobil idarə edir və bu insanlar ilin 3 ayını yollarda keçirir.
* Parisin küçələrini bəzəyən şabalıd ağacları Fransaya Türkiyədən gətirilmişdir.
* İnsan 1,5 ilini hamamda keçirir.
* "Bugatti Veyron" avtomobili ən yüksək (420 km) sürətlə gedərsə, 13 dəqiqədən sonra təkərləri əriyər. Ancaq bu demək olar ki, mümkün deyil. Çünki 8 dəqiqə sonra benzini bitir.
* Eskimoslarda ailəsindən məmnun olmayan uşaq istədiyi başqa bir ailə ilə birlikdə yaşaya bilər.

Ən təhlükəli yaş dövrü

Şizofreniya və bipolyar pozğunluq kimi ən ağır psixi xəstəliklər adətən gənc yaşda, 30 yaşından əvvəl başlayır.

Bu sözləri tibb üzrə ekspert, psixiatr Artyom Gilev avstraliyalı alimlərin araşdırmasını şərh edərkən deyib.

Mütəxəssislər müəyyən ediblər ki, psixi sağlamlıqla bağlı ən çox problemlər 15-24 və 25-34 yaşlarda müşahidə olunur. Eyni zamanda elm adamları qeyd edib ki, 65 yaşlı insanlarda narahatlıq-depressiv pozğunluqlar daha az tez-tez qeydə alınır. Daha yaşlı insanlarda isə psixi pozuntuların daha çox olduğuna diqqət çəkiblər.

"40 yaşdan yuxarı ilk dəfə şizofreniya diaqnozu qoyulan insanlar praktiki olaraq yoxdur. Deməli, ən ciddi psixi xəstəliklərin aşkarlanmasının pik həddi əslində 16-17 və ya 25-30 yaş dövrüdür. Bunu genetika və bu cür xəstəliklərin inkişaf mexanizminin xüsusiyyətləri ilə də izah etmək olar", - ekspert "kp.ru"ya müsahibəsində vurğulayıb.

Həkim əlavə edib ki, depressiya və narahatlıq pozğunluqları yaşla bağlı deyil. Burada ölkədə və dünyada mövcud vəziyyət böyük rol oynayır. Mütəxəssis qeyd edib ki, əgər insan həyatı boyu daimi stresslə üzləşirsə, o zaman belə pozuntuların sayı artır.

"İkinci mühüm amil genetikadır. Genlərdə müəyyən "pozulmalar" depressiya və anksiyete pozğunluqlarının inkişafına kömək edir. Amma yenə də bu xəstəliklər məhz xarici şərait, sosial təlatümlər, böhranlar, həmçinin epidemiyalardan sonra başlayır", - psixiatr bildirib.

Bundan əlavə, o qeyd edib ki, əsəb xəstəliklərinə qarşı müqavimət yaşa bağlı deyil, hər şey insanın nə qədər sarsıntı keçirməsi ilə izah olunur. Onları nə qədər çox yaşayarsa, proqnoz bir o qədər pis olur. Gilev vurğulayıb ki, gərginliyə öyrəşmək mümkün deyil, hər yeni təzyiq psixikanı silkələyir və bütün bunlar daxildə toplanır.

Həkim hesab edir ki, smartfonlar və virtual ünsiyyətə hədsiz həvəs gənclərin psixikasına zərər vura bilməz. Onun fikrincə, bu, hətta bəziləri üçün faydalıdır. Bundan əlavə, psixiatr insanları vəziyyəti drammatikləşdirməməyə çağırıb və qeyd edib ki, sosial mediada boş-boş vaxt keçirmək psixikaya zərər verə bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.